№ 49 (992) 7-13 dekabr 2017-ci il

www.iqtisadiyyat.com

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

Qeyri-neft sektorunun inkişafına töhfə: "BAKU AGROPARK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Xəzər rayonunun Zirə qəsəbəsində "BAKU AGROPARK"ın birinci mərhələsi çərçivəsində görülən işlərlə tanış olub. İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Səməd Qurbanov dövlətimizin başçısına Aqropark barədə məlumat vermişlər.

Bildirilmişdir ki, "BAKU AGROPARK" MMC-nin müasir istixana kompleksinin ümumi layihə dəyəri 68 milyon manata yaxındır. İkinci mərhələdə daha 10 hektar sahədə şüşə tipli müasir istixana və 1 hektar sahədə şitilxananın tikilməsinə 24,7 milyon manat, üçüncü mərhələdə isə 10 hektar sahədə şüşə tipli müasir istixananın yaradılmasına 21 milyon manat investisiya qoyulacaq.

Qeyd edək ki, hazırda ölkədə 3 min hektara yaxın sahədə mövcud və tikilməkdə olan istixana təsərrüfatları var. Bunun 2463 hektarı mövcud, 463 hektarı isə tikilməkdə olan istixana təsərrüfatlarıdır. Fəaliyyətdə olan istixana təsərrüfatlarından bu il avqustun 1-dək 302,3 min ton tərəvəz məhsulları yığılıb. İstehsal olunan məhsullar əsasən ixrac edilir. Görülən işlərin nəticəsidir ki, bu ilin 10 ayı ərzində tərəvəz ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,5 faiz artıb. Bu artım 259,7 min ton və ya 184,2 milyon dollar təşkil edib. Son illərdə regionlarda və Bakı şəhərinin qəsəbələrində 312 hektar sahədə ümumi dəyəri 400 milyon manat olan 58 müasir istixana kompleksinin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 milyon manat güzəştli kredit verilib.

Diqqətə çatdırılmışdır ki, "BAKU AGROPARK"ın birinci mərhələsində 10 hektar sahədə illik istehsal gücü 3,3 min ton pomidor məhsulu olan istixana kompleksi yaradılıb. Birinci mərhələdə layihə üzrə infrastrukturun yaradılmasına 21,7 milyon manat investisiya qoyulub. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə bu mərhələ üzrə 10 milyon manat güzəştli kredit ayrılıb.

Dördüncü nəslə aid istixana kompleksi Niderland texnologiyasından istifadə olunmaqla qurulub. Kompleksin texniki zonasında su, gübrə çənləri qoyulub, qazanxana və sutəmizləmə sistemi quraşdırılıb. İstixananın suvarılmasını təmin etmək üçün 21 min kubmetr tutumu olan su hövzəsi yaradılıb. İstixanada yüksək keyfiyyət göstəricilərinə malik olan ekoloji təmiz məhsullar istehsal edilir. Daha bir üstün cəhət isə istehsal prosesinin tam avtomatlaşdırılmasıdır. Bu isə öz növbəsində yerli mütəxəssislərin intellektual və peşəkarlıq səviyyəsinin artırılmasını, bu sahədə yüksək ixtisaslı kadrların formalaşmasını şərtləndirir. Kompleksin idarə olunmasında və yerli kadrların yetişdirilməsində Avropa mütəxəssislərinin xidmətindən istifadə olunur. Burada yüksək əmək təhlükəsizliyinə və gigiyenik-sanitar normalara riayət olunur, işçilərin işə gətirilməsi, aparılması və nahar yeməyinin verilməsi təmin edilir. İstehsal olunan məhsullar "Tomat.az" brendi ilə əsasən ixrac edilir.

Bu müəssisənin yaradılması ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişafına töhfə verməklə yanaşı, Azərbaycanın ixracyönümlü məhsullarının sayının və çeşidinin artırılmasında da rol oynayır. Belə layihələrin icrası həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir. Hazırda kompleksdə 140 nəfər işlə təmin olunub. Müəssisə tam fəaliyyətə başladıqdan sonra yeni iş yerlərinin sayı da artacaq.

Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşüb söhbət etmişdir.

Dünyanın 20 ölkəsini təmsil edən 192 şirkət "Bakutel-2017" sərgisində

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Bakı Ekspo Mərkəzində XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisi - "Bakutel-2017" ilə tanış olublar.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat vermişdir.

Bildirildi ki, builki sərgidə dünyanın 20 ölkəsini təmsil edən 192 şirkət iştirak edir. Onların arasında Azərbaycan, Amerika Birləşmiş Ştatları, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Finlandiya, Fransa, İsveç, Niderland Krallığı, Türkiyə və digər ölkələr var. İştirakçılar arasında aparıcı İKT şirkətləri, mobil operatorlar, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları və tanınmış brendlərin distributorları yer alıb. Sərginin 40 faizi "Bakutel"in daimi eksponatlarından ibarətdir. Builki sərginin iştirakçılarının 30 faizi debütantlardır.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva sərgidə nümayiş etdirilən pavilyonlarla tanış olublar.

"Bakutel-2017" sərgisi ilə tanışlıq zamanı Prezident İlham Əliyev "Euronews" və "Rossiya-24" telekanallarının suallarını cavablandırmışdır.

Azərbaycan bayraqlı ilk qatar Türkiyə ərazisində

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə (QSC) məxsus olan vaqonlardan ibarət ilk yük qatarı dekabrın 5-də Bakı-Tbilisi-Qars dəmir yolu ilə yola salınıb.

Bu barədə QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin Hərəkətin təhlükəsizliyi üzrə müfəttişlik aparatının rəisi Kazım Şərifov bildirib ki, Axalkalaki stansiyasında vaqonların təkər arabacıqlarının dəyişdirilməsi - 1520 mm standartlı izdən 1435 mm standartlı izə keçirilməsi prosesi başa çatandan sonra qatar Qarsa yola salınıb. Artıq Azərbaycan bayraqlı ilk qatar Türkiyə ərazisindədir.

Qeyd edək ki, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı bu il oktyabrın 30-da keçirilib. Artıq bu marşrutla Qazaxıstandan Türkiyənin Mersin şəhərinə iki qatar yola salınıb. Otuz konteynerdən ibarət birinci qatar noyabrın 4-də Mersinə çatıb. Həmin qatarla 600 ton buğda daşınıb. İkinci yük qatarı noyabrın 27-də Qazaxıstandan yola düşüb. Qatar artıq Gürcüstana çatıb.

Azərbaycanda sənaye parklarında 25 rezident qeydiyyata alınıb

Azərbaycanda 5 sənaye parkı, 3 sənaye məhəlləsi və 3 aqropark yaradılıb. Sənaye parklarında 25 rezident qeydiyyata alınıb.

Bu barədə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov "Beynəlxalq maliyyə institutları ilə sənaye parkları və sənaye məhəllələri rezidentlərinin əməkdaşlıq imkanları" mövzusunda keçirilən tədbirdə deyib.

"Eyni zamanda, ölkəmizdə 28 rayon üzrə 42 aqroparkın yaradılması təşkil olunub. Bu aqroparkların ümumi dəyəri 350 milyon manatdır", - deyə nazir müavini qeyd edib.

Niyazi Səfərov, həmçinin indiyədək 200-dən çox sahibkara investisiya təşviqi sənədinin verildiyini diqqətə çatdırıb.

Energetika Nazirliyi: Noyabrda respublika üzrə gündəlik neft hasilatı 790,7 min barrel olub

Azərbaycan Neft İxrac Edən Ölkələr Təşkilatına (OPEC) noyabr ayı üzrə gündəlik neft hasilatı ilə bağlı məlumatları təqdim edib.

Energetika Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazirlik OPEC-ə üzv olan və kartelə daxil olmayan ölkələrin neft hasilatının azaldılması ilə bağlı Vyana razılaşmasına uyğun olaraq Azərbaycanın cari ilin noyabr ayı ərzində gündəlik neft hasilatı ilə bağlı məlumatlarını Birgə Monitorinq Komitəsinin Müştərək Texniki Komissiyasına təqdim edib. Həmin məlumatlara əsasən, cari ilin noyabr ayı ərzində respublika üzrə gündəlik neft hasilatı 790,7 min barrel olub. Bunun 735,8 min barrelini xam neft, 54,9 min barrelini kondensat təşkil edib. Gündəlik 643,4 min barrel xam neft, 54,9 min barrel kondensat, 15 min barrel isə neft məhsulları ixrac edilib. Neft hasilatının azaldılması üzrə sazişə müvafiq olaraq Azərbaycan hasilatı sutkada 35 min barrel azaltmaqla bağlı götürdüyü öhdəliyi növbəti dəfə də tam yerinə yetirib.

Qeyd edək ki, respublika üzrə gündəlik neft hasilatı yanvar ayı ərzində 793,9 min barrel, fevralda 776,4 min barrel, martda 733,3 min barrel, apreldə 781,1 min barrel, mayda 785,3 min barrel, iyunda 793,7 min barrel, iyulda 796,7 min barrel, avqustda 734,8 min barrel, sentyabrda 785,7 min barrel, oktyabrda isə 800,6 min barrel olub.

Xatırladaq ki, ötən il noyabrın 30-da OPEC üzrə gündəlik neft hasilatının 1,2 milyon barrel azaldılaraq 32,5 milyon barrelə endirilməsi barədə razılıq əldə olunub. Dekabrın 10-da isə Vyanada OPEC üzvləri ilə təşkilata daxil olmayan 11 ölkə, o cümlədən Azərbaycan ümumi hasilatın sutkada 558 min barrel azaldılması barədə sazişə imza atıb. Bu il mayın 25-də OPEC Nazirlər Şurasının 172-ci iclası çərçivəsində OPEC-ə üzv və qeyri-üzv dövlətlər arasında neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin birinci rübünədək uzadılması barədə razılıq əldə olunub. Cari il noyabrın 30-da isə OPEC Nazirlər Şurasının 173-cü iclası çərçivəsində OPEC-ə üzv və qeyri-üzv dövlətlərin üçüncü görüşündə neft hasilatının azaldılmasına dair sazişin müddətinin 2018-ci ilin sonuna kimi uzadılması ilə bağlı qərar qəbul olunub. OPEC və qeyri-OPEC ölkələrinin bu yeni razılaşmasına Azərbaycan da qoşulub.

SOCAR: Karbamid zavodu layihəsinin təxminən 99 faizi icra olunub

"2018-ci ildə istismara verilməsi planlaşdırılan Karbamid zavodunda ümumilikdə layihənin 98,5 faizi icra edilib. Əsaslı layihələndirmə və satınalma işləri tamamlanıb. Tikinti işlərinin isə 95 faizi artıq həyata keçirilib", - deyə SOCAR-ın məlumatında deyilir.

Qeyd edək ki, Karbamid zavodunun inşası layihəsi "2008-2015-ci illərdə Azərbaycanda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na əsasən hazırlanıb. Zavodun inşası zamanı 3 min nəfər, müəssisə fəaliyyətə başladıqdan sonra isə 500 nəfər işlə təmin olunacaq. Yanvarda SOCAR "Karbamid zavodu" layihəsinin maliyyələşdirilməsi üçün Koreya Respublikasının "İxrac-İdxal Bankı"ndan vəsait cəlb edib. Bank zavodun inşasına 500 milyon avro məbləğində kredit ayırıb.

Sumqayıtdakı Azot gübrəsi - karbamid istehsalı zavodunun layihəsi 2013-cü il martın 13-də SOCAR və Koreya Respublikasının "Samsung Engineering Co., Ltd." şirkəti arasında imzalanan mühəndislik, satınalma və tikinti üzrə müqaviləyə əsasən həyata keçirilir. Daxili tələbatın tam ödənilməsi ilə yanaşı, gələcəkdə istehsal olunan karbamid məhsulunun müəyyən hissəsi Türkiyəyə və SOCAR-a məxsus Kulevi terminalı vasitəsilə dünya bazarlarına ixrac ediləcək. Zavod ammonyak, maye və dənəvər karbamid istehsalı bölmələrindən ibarət olacaq. Sutkada 2 min ton karbamid istehsal edən zavod kənd təsərrüfatının davamlı inkişafına böyük töhfə verəcək, işsizlik probleminin aradan qaldırılmasına müsbət təsir göstərəcək.

Layihənin dəyəri 700-750 milyon avro məbləğində qiymətləndirilir. Finlandiyanın "Neste Jacobs Oy" şirkəti "Karbamid zavodu" layihəsi üzrə layihənin idarəedilməsi və müstəqil təftiş xidmətləri göstərir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

AĞDAŞ RAYONU – PRİORİTET SAHƏLƏR ÖN MÖVQEYƏ ÇIXARILIR

2017-ci il Azərbaycanın iqtisadi və sosial həyatında inkişaf və tərəqqi ili kimi özünü göstərmiş, bütün sahələrdə yüksək dinamika qorunub saxlanılmışdır. Regional proqramların və layihələrin uğurla icrası davam etdirilmiş, iqtisadiyyatın strukturunda aqrar bölmənin payı və çəkisi artmışdır. Regionlarda sosial və infrastruktur təyinatlı tədbirlərin davam etdirilməsi nəticəsində rayon mərkəzlərinin, kənd və qəsəbələrin siması köklü şəkildə dəyişmişdir. Bir sözlə, 2017-ci ili Azərbaycan üçün uğurlu il saymaq olar. Bu günlərdə Ağdaş rayonunda da nikbin əhval-ruhiyyə yaşanır. Cari ilin sona çatmasına az vaxt qalmasına baxmayaraq, heç yerdə iş səngimir, hər kəs yeni ilin gəlişinə qədər yarımçıq qalan işini tamamlamaq istəyir. Ağdaş kənd təsərrüfatı rayonudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə əlaqədar müəyyən etdiyi layihələr və islahat proqramları Ağdaş rayonundan da yan keçməyib, konkret işlərdə və tədbirlərdə öz real təcəssümünü tapıb.

İndi dövlətimizin qarşıya qoyduğu hədəf budur – kənd təsərrüfatı məhsullarının istehsalında ildə ən azı 7 faiz artıma nail olmaq! Bu hədəfə çatmaq üçün imkanlar araşdırılıb, yol xəritəsi işlənib hazırlanıb. Bir də ki, hər sahədə işlər möhkəm təməl üzərində qurulub, 2004-cü ildən başlayaraq bütün sahələrə siraət edən inkişaf dalğası bu təməli təmin edib. Ucar rayonunda da son illər ardıcıl olaraq iqtisadi inkişaf və artım dinamikası özünü göstərib.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə rayonda bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı diqqət mərkəzində saxlanılıb. 2017-ci ilin məhsulu üçün əkilmiş 13466 hektar sahədən 30520 ton payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilər tədarük edilib. Belə ki, 3686 hektar sahədən 7261 ton buğda, 8215 hektar sahədən 18502 ton arpa, 193 hektar sahədən 270 ton vələmir, 118 hektar sahədən 354 ton lobya toplanıb. Bu dövrdə 241 hektar sahədən 1537 ton dən üçün qarğıdalı, 208 hektar sahədən 2505 ton kartof, 251 hektar sahədən 5100 ton bostan, 832 hektar sahədən 15133 ton tərəvəz məhsulu toplanıb. İl ərzində rayonda 16235 ton meyvə və 917 ton üzüm istehsal olunub.

Əkinə yararlı, lakin suvarılmayan 15800 hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi üçün 3 layihənin icrasına başlanılıb. Birinci layihə üzrə suvarma suyu Yuxarı Şirvan kanalından götürülməklə 4300 hektar sahənin, ikinci layihə üzrə suvarma suyu Kür çayından götürülməklə 7000 hektar sahənin və üçüncü layihə suvarma suyu Türyançay çayından götürülməklə 4500 hektar sahənin əkin dövriyyəsinə cəlb edilməsi nəzərdə tutulur. Hazırda birinci layihə üzrə işlərə start verilib.

Rayonda mal-qara arasında süni mayalanma işinin təşkili və onun genişləndirilməsi sahəsində ardıcıl tədbirlər görülüb. 2017-ci il ərzində 3042 baş heyvan süni yolla mayalanmış və 864 baş bala alınmışdır. Qara yara xəstəliyinə qarşı iri və xırdabuynuzlu mal-qara arasında peyvənd işləri aparılıb. 2017-ci ilin oktyabrın 1-i vəziyyətinə rayonun heyvandarlıq təsərrüfatlarında 76723 baş iribuynuzlu mal-qara, 92722 baş qoyun və keçi mövcud olmuşdur. Cari ilin əvvəllərindən 77 ton diri çəkidə ət, 35336 ton süd, 8750 ədəd yumurta, 180 ton yun istehsal olunmuşdur. Bakı şəhərində təşkil edilmiş kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına 100 tondan çox məhsul göndərilmişdir.

Cari ildə dövlət başçısının tapşırığına əsasən, pambıq əkini sahələrinin genişləndirilməsi istiqamətində rayonda əməli addımlar atılmışdır. Əhalinin pambıqçılığa marağı və bu sahəyə göstərilən hərtərəfli dəstəyi müsbət nəticə vermişdir. Cari ildə rayonda 3000 hektar ərazidə pambıq əkini aparılmış və bol məhsul əldə edilmişdir.

Ölkəmizdə kənd təsərrüfatının strateji istiqamətlərinin inkişaf etdirilməsi ilə bağlı cənab prezident İlham Əliyevin qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara, verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq, Ağdaş rayonunda çəltikçiliyin sürətli inkişafına təminat yaradılmış, cari ildə yüksək nəticələr qazanılmışdır. 2017-ci ildə Ağdaş rayonun 59 yaşayış məntəqəsində 2454 hektarda çəltik əkilmiş və sahələrdən 8300 tondan çox məhsul əldə olunmuşdur. 2017-ci ilin doqquz ayı ərzində rayonda 151 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bunun da 80 milyon manatı kənd təsərrüfatının, 5,6 milyon manatı sənayenin, 5,6 milyon manatı tikinti-quraşdırma işlərinin, 56 milyon manatı ticarət, nəqliyyat, rabitə və digər xidmətlərin payına düşür.

Cari il ərzində Ağdaş Rayon Məşğulluq Mərkəzinə 1039 nəfər müraciət etmiş, onların 400 nəfəri müxtəlif sənət və ixtisaslar üzrə işə düzəldilmişlər. Bundan başqa, əhalinin özünüməşğulluğunu təmin etmək məqsədilə 18 vətəndaş üçün biznes planı hazırlanmış və onlara aktivlər alınıb verilərək məşğulluqları təmin edilmişdir.

2017-ci il üçün rayon büdcəsi 8 milyon 475 min manat təşkil etmişdir. Respublika büdcəsindən qarşılıqlı hesablaşma yolu ilə daxil olan xərclər də nəzərə alınmaqla 2017-ci ilin doqquz ayı ərzində büdcənin mədaxil hissəsi 5 milyon 938 min manata qarşı 5 milyon 985 min manat icra olunmaqla 99,8 faiz yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə plan 3 milyon 550 min manata qarşı 3 milyon 531 min manat, yaxud 99,7 faiz yerinə yetirilmişdir. Müvafiq dövr ərzində rayon büdcəsinin xərclərinin 3 milyon 728 min manatını, yaxud 71,4 faizini əməkhaqqı və ona üstəlik xərcləri, 728 min manatını və ya 13,3 faizini abadlıq və işıqlandırma xərcləri, 210 min manatını və ya 4 faizini kommunal xərclər təşkil etmişdir.

Dövlətimizin strateji hədəf seçdiyi insan kapitalı birbaşa təhsilin inkişaf səviyyəsi ilə ölçülür. Cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası"na uyğun olaraq son ildə Ağdaş rayonunda da mühüm işlər görülmüşdür. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, son 14 il ərzində ölkəmizdə 3000-dən çox yeni müasir məktəb binası tikilib istifadəyə verilmişdir. Hazırda Ağdaş rayonunda 30 məktəbəqədər tərbiyə müəssisəsi, 68 ümumtəhsil məktəbi, 3 məktəbdənkənar müəssisə, 1 peşə məktəbi və humanitar kollec fəaliyyət göstərir ki, bunların xeyli hissəsinin əsaslı təmirə ehtiyacı vardır. Ölkə başçısının müvafiq fərmanına uyğun olaraq yaxın vaxtlarda rayonda 10 məktəb üçün modul tipli binaların tikintisi nəzərdə tutulur. Bu məqsədlə 2017-ci ildə rayonun Aşağı Zeynəddin, Yenikənd, Pizəyiz, Qarasuqumlaq kəndlərində yeni məktəb binalarının tikintisinə başlanılıb. Ağdaş rayonunda Rayon Mərkəzi xəstəxanası, Ləki qəsəbə xəstəxanası, Ağ ciyər xəstəlikləri xəstəxanası, 2 ambulator poliklinika, 12 kənd həkim məntəqəsi, 48 tibb məntəqəsi əhaliyə səhiyyə xidməti göstərir ki, onların da bəzilərinin əsaslı təmirə və yenidənqurmaya ehtiyacı var.

Müvafiq dövr ərzində rayonda gənclər siyasətinin həyata keçirilməsi, gənclərin məşğulluğunun dolğun şəkildə təmin edilməsi, onların təşkilatlanması və formalaşması istiqamətində 74 sosial-mədəni və idman tədbirləri həyata keçirilmiş, həmçinin respublika əhəmiyyətli qeyri-hökumət və gənclər təşkilatları ilə birgə layihələrin həyata keçirilməsində gənclər xüsusi fəallıq göstərmiş, müxtəlif intellektual oyunlarda fərqlənmişlər.

Cari ilin 11-14 iyun tarixlərində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə boks üzrə yeniyetmələr arasında «Heydər Əliyev kuboku – 2017» beynəlxalq turniri keçirilmişdir. Turnirdə Qırğızıstan, Özbəkistan, Gürcüstan, Ukrayna, Macarıstan, İran, Qazaxıstan, Rusiya idmançıları ilə yanaşı, ölkəmizin boksçuları da mübarizə aparmışlar. Bu yarışda 66 kq çəki dərəcəsində Ucar rayonunu təmsil edən Rüfət Nəbiyev bütün rəqiblərinə qalib gələrək beynəlxalq turnirin qızıl medalına layiq görülmüşdür.

Yuxarıda deyilənlərdən aydın olur ki, Ağdaş rayonu sosial-iqtisadi yüksəliş mərhələsinə daxil olub. Lakin bununla bərabər, görüləsi işlər hələ çoxdur.

Burada söhbət öncə xırda və orta biznesin inkişafından, iqtisadiyyatda diversifikasiya proseslərinin dərinləşdirilməsindən gedir. İstər torpaq-iqlim şəraitinə, istər əmək ehtiyatlarına, istərsə də əkinçilik ənənələrinə görə Ağdaş böyük potensiala malikdir. Həmin imkanları hərəkətə gətirmək üçün çevik mexanizmlər işlənib hazırlanmalıdır. Fikrimizcə, kənd təsərrüfatının prioritet istiqamətlərindən danışarkən Ağdaş rayonu üzrə böyük perspektivlər vəd edən pambıqçılığın, çəltikçiliyin və meyvəçiliyin üstün mövqelərə çıxarılmasına zərurət vardır. Göstərilən sahələri inkişaf etdirməklə nəinki əhalinin maddi durumunu yaxşılaşdırmaq, həm də yaxşı ixrac imkanları qazanmaq olar. Bunun üçün modern emal müəssisələrinin yaradılması, eyni zamanda, müasir tələblərə cavab verən sahibkarlıq zümrəsinin yetişdirilməsi vacib vəzifə kimi qarşıda durur. Xammaldan yarımfabrikata, oradan da rəqabətədavamlı hazır məhsul buraxılışına keçid problemini həll etməyin vaxtı çatmışdır.

Zülfü İLYASOV,
bölgə müxbiri
Ağdaş rayonu

Heydər Əliyev Mərkəzi "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası" mövzusunda elmi-praktik seminar keçirib

Heydər Əliyev Mərkəzinin "Heydər Əliyev irsi: elmi-praktik seminarlar" layihəsi çərçivəsində növbəti seminar dekabrın 4-də Masallı rayonunda keçirilib.

AZƏRTAC xəbər verir ki, budəfəki seminar "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası" mövzusunu əhatə edib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov tədbirdə çıxış edərək 2014-cü ildən etibarən keçirilən elmi-praktik seminarlar layihəsi çərçivəsində bir sıra maraqlı mühazirələrin oxunduğunu, ölkəmizin tanınmış ziyalılarının, alimlərinin ümummilli lider Heydər Əliyevin zəngin fəaliyyəti haqqında danışaraq ictimaiyyəti, xüsusilə də gəncləri ulu öndərin xidmətləri haqqında yeni faktlarla tanış etdiklərini bildirib.

"Çox xoşdur ki, bizim bu layihə paytaxtımızdan kənarda, ilk dəfə olaraq Masallıda keçirilir. Heydər Əliyevin zəngin irsinin dərindən öyrənilməsi, qorunub saxlanılması, tədqiqi və hərtərəfli inkişaf etdirilməsi bölgələrdə fəaliyyət göstərən hər bir Heydər Əliyev Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən birini təşkil etməlidir və edir", - deyə Anar Ələkbərov qeyd edib. Məhz Heydər Əliyevin rəhbərliyi altında siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq ideologiyasının bərqərar olması nəticəsində bu gün Azərbaycanın uğurla inkişaf edən ölkəyə çevrildiyini deyən Anar Ələkbərov xalqımızın milli ideya ətrafında birləşməsi, güclü milli mənəvi dəyərlər əsasında müasir dövlətin qurulması prosesinin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdiyini bildirib.

Anar Ələkbərov Heydər Əliyev irsinin tədqiqi və daha geniş auditoriyada təbliği, gənclərin tarixi keçmişinə bağlı ruhda böyüməsi, onlara vətənpərvərlik hisslərinin aşılanması məqsədilə 2015-ci ildən etibarən Heydər Əliyev Mərkəzi tərəfindən müxtəlif qurumların tərkibində Heydər Əliyev məktəblərinin yaradıldığını da qeyd edib. Ötən müddətdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Heydər Əliyev İdarəçilik Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Heydər Əliyev Mədəniyyət və İncəsənət Məktəbi, Masallı rayonunda "ASAN Həyat" kompleksinin nəzdində Heydər Əliyev İncəsənət Məktəbi yaradılıb. O, bugünkü məşğələnin də canlı telekörpü vasitəsilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzində ümumilikdə 800-dən çox iştirakçı tərəfindən izlənildiyini deyib. Anar Ələkbərov, həmçinin 2014-cü ildə Heydər Əliyev Mərkəzində ilk dəfə olaraq "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda ümumrespublika bilik yarışının təşkil edilməsi ilə gözəl ənənənin təməlinin qoyulduğunu diqqətə çatdırıb. Bildirib ki, bu günədək ardıcıl keçirilən yarışlarda iştirak edən, mövzuya maraq göstərən tələbələrin sayının ildən-ilə artması, gənclərin bu bilik müsabiqəsinə həvəs göstərməsi sevindirici haldır.

"Heydər Əliyev həm sovet dönəmində, həm də müstəqillik illərində iqtisadiyyatın inkişafına böyük önəm verirdi. Ümummilli liderin fikrincə, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur", - deyən Anar Ələkbərov Heydər Əliyevin bu sahədəki xidmətləri barədə ümummilli liderlə uzun illər çiyin-çiyinə çalışmış iqtisadçı-alim, akademik Ziyad Səmədzadənin mühazirəsinin əhəmiyyətli olacağını bildirib.

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə mühazirəsində Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan iqtisadiyyatının inkişafı üçün tarixi xidmətlərindən söz açıb. Bildirib ki, Sovet İttifaqına daxil olan müttəfiq respublikaların rəhbərləri bir qayda olaraq ittifaq tərəfindən müəyyən edilən "oyun qaydaları" əsasında fəaliyyət göstərirdilər. Hər bir mühüm məsələ SSRİ dövlətinin nəzarətində idi. Lider kimi fəaliyyət göstərmək üçün çoxlu məhdudiyyətlər var idi. 1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Heydər Əliyev də bütün bu məhdudiyyətlərlə, çətinliklərlə üzləşməli oldu. Üstəlik də, respublika iqtisadiyyatında, sözün əsl mənasında, ağır vəziyyət yaranmışdı: bütün əsas sosial-iqtisadi göstəricilərə görə Azərbaycan ittifaqda axırıncı yeri tuturdu. Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırdı və qısa vaxt ərzində sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarının qəbul edilməsinə nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik aradan qaldırıldı, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü.

Akademikin sözlərinə görə, Heydər Əliyev qəti qərara gəlmişdi ki, respublika iqtisadiyyatının uzaq gələcəyə yönələn inkişafı elmi-texniki tərəqqini müəyyən edən sahələrin daha üstün inkişafından çox asılı olacaq. Bu strateji xətti həyata keçirmək üçün Heydər Əliyev titanik fəaliyyət göstərdi, ciddi maneələrin aradan qaldırılmasına nail oldu. 1976-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanda sənayenin təkmilləşməsinə dair çox mühüm sənəd qəbul etdilər. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan sənayesinin inkişafı tarixində mühüm rol oynayan bu proqramın uğurla reallaşması üçün böyük təşkilati iş aparıldı. Nəticədə sənayenin vacib proporsiyaları xeyli yaxşılaşdı, yeni tipli sənaye müəssisələri, istehsal sahələri istifadəyə verildi, on minlərlə yeni iş yeri yaradıldı, sənayenin ixrac potensialı xeyli artdı, istehsalın mədəni-texniki səviyyəsi yüksəldi.

1976-1980-ci illərdə Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxdı. Sənayenin strukturunda maşınqayırma və metal emalı sənayesinin payı 1965-ci ildəki 10 faizdən 16,3 faizə qalxdı. Elmi-texniki tərəqqini müəyyən edən sənaye sahələrində istehsalın həcmi əvvəlki onillikdəki səviyyəyə nisbətən 2,4 dəfə artdı. 1970-ci illər Azərbaycan tarixinə, sözün əsl mənasında, sənayenin intibah dövrü kimi daxil oldu.

Ziyad Səmədzadə qeyd edib ki, XX əsrin əvvəllərində, istərsə də sovet hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatında əsas rolu neft sənayesi oynayırdı.

Heydər Əliyev iqtisadiyyatın maddi-texniki bazasında yaranmış geriliyin aradan qaldırılması, qeyri-neft sahələrinin üstün inkişafının təmin edilməsi üçün əsaslandırılmış təkliflər hazırladı. 1971-1975-ci illərdə respublika iqtisadiyyatına 1966-1970-ci illərdəkindən 30 faiz çox vəsait qoyuldu, 64 iri sənaye müəssisəsi istifadəyə verildi.

Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə bağlı müəyyən etdiyi strategiyada aqrar sektor xüsusi yer tuturdu. 1960-cı illərdə Azərbaycan kəndində əhalinin yarısı yaşayırdı, kənd təsərrüfatında istehsal olunan milli gəlir də böyük çəkiyə malik idi. 1971-1975-ci illərdə 1966-1970-ci illərə nisbətən məhsul istehsalı 34 faiz artdı, bir sıra vacib sahələrdə yüksək göstəricilərin əldə edilməsinin möhkəm təməli yarandı. 1976-1980-ci illərdə Azərbaycan kənd təsərrüfatının ümumi məhsulunun artımına görə ittifaqda birinci yerə çıxdı.

Akademik bildirib ki, 1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı göstəriciləri tarixi inkişafın ayrı-ayrı dövrləri ilə müqayisə etdikdə, birmənalı olaraq bu nəticəni çıxarmaq olar: Azərbaycanın 1969-1985-ci illəri əhatə edən dövründə iqtisadiyyatda yüksək artım sürəti təmin edilmiş, onun keyfiyyət göstəriciləri əsaslı surətdə yaxşılaşmışdı ki, bütün bunlar da müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşması və inkişafında müstəsna rol oynamışdı.

Ziyad Səmədzadənin sözlərinə görə, 70-ci illərdə yaradılmış, elmi-texniki istehsal potensialı olmasaydı, bu gün müstəqil Azərbaycan çoxlu çətinliklər, problemlərlə üzləşə bilərdi. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdıqda, respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, xalqın mentalitetinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı, düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlar, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi.

"Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır", - deyə Z.Səmədzadə vurğulayıb.

Bildirilib ki, Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft amilinə üstünlük verdi. Bu, yeganə çıxış yolu idi. Bu, dünya inteqrasiyasına qovuşmaq, maliyyə imkanları, demək olar ki, tükənmiş respublikaya investisiyaların cəlb edilməsi yolu idi. 1994-cü ildə Azərbaycan dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. "Bu, müstəqil Azərbaycan dövlətinin, onun prezidentinin tarixi uğuru idi. Bu, eyni zamanda, Azərbaycanın dünya inteqrasiyasında fəal iştirakı üçün əlverişli imkanların yaradılması idi.

Akademikin sözlərinə görə, Heydər Əliyev sübut etdi ki, Azərbaycan suveren dövlət kimi öz təbii sərvətlərinin sahibidir və tarixin ona verdiyi bu şansdan xalqının mənafeyi naminə uğurla istifadə edilməlidir. O, neft siyasətini ümumi inkişaf strategiyası, hüquqi demokratik cəmiyyətin prinsipləri ilə əlaqələndirdi, milli mənafelər, investisiya mühitinin yaxşılaşması üçün zəruri tədbirlər həyata keçirdi, Amerika və Avropanı Azərbaycanın maraqlarına cəlb etdi. Bütün bunlar da Azərbaycan dövlətinin beynəlxalq aləmdə imicinin yüksəlməsinə, respublikaya investisiya axınının güclənməsinə əlverişli şərait yaratdı, respublikamızın müstəqil bir dövlət kimi imkanlarını genişləndirdi.

"Bu gün Azərbaycan dövləti çoxsaylı alternativ neft-qaz ixracı ilə bağlı nəql marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi və bu da öz müsbət nəticələrini verir", - deyə Ziyad Səmədzadə bildirib.

Qeyd edilib ki, Azərbaycan dövləti yaxın və uzaq gələcək üçün iqtisadi inkişaf strategiyasında aqrar sektorun daha davamlı inkişafını nəzərdə tutub. "Azərbaycan qlobal dünya böhranı dövründə səylərini ölkədə maliyyə sabitliyinin qorunmasına yönəldib" - deyən Ziyad Səmədzadə bildirib ki, Heydər Əliyevin Fərmanı ilə 2002-ci ildə təsdiq edilən "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" ölkədə sahibkarlığın inkişafına böyük təkan verdi. Son illərdə bu işlər daha sürətlə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən dövlət proqramlarında müəyyənləşdirilmiş istiqamətlər: ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda sahibkarlığın maliyyə təminatının artırılması, istehsal resursları və kadr potensialı haqqında məlumat bazasının yaradılması, infrastrukturun inkişaf etdirilməsi, dövlət-özəl sektor münasibətlərinin inkişafı, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlara texniki yardımın genişləndirilməsi üzrə işlər uğurla davam etdirilir.

2004-cü il fevralın 11-də Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında Fərman imzaladığını xatırladan natiq bu proqramın ölkə əhalisi üçün böyük əhəmiyyət kəsb edən, bir neçə fundamental məsələnin həllinə yönələn məqsədləri nəzərdə tutduğunu bildirib. Bunlar ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması, regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması, regionların malik olduğu resurslardan səmərəli istifadə olunması, mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerlərinin yaradılması, regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasıdır.

Ziyad Səmədzadə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyini təsis etməsinin əhəmiyyətli addım olduğunu bildirib. O, regionlarda ictimai fəallığın artırılmasının, insan kapitalının inkişafının vacib olduğunu qeyd edib.

Akademik Ziyad Səmədzadənin sözlərinə görə, bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər.

Elmi-praktik seminar daha sonra iştirakçıların sualları ətrafında müzakirələrlə davam edib. Müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Heydər Əliyev Mədəniyyət və İncəsənət Məktəbi, Sumqayıt şəhərindəki Heydər Əliyev Mərkəzindəki dinləyicilər də iştirak edib.

İstehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi üzrə müzakirə aparılıb

Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi üzrə müzakirə aparılıb.

İqtisadiyyat Nazirliyinin əlaqələndiricisi olduğu «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin icra vəziyyəti üzrə növbəti iclas keçirilib.

İclasda İqtisadiyyat Nazirliyinin əsas icraçı olduğu tədbirlər üzrə məsul icraçı və əlaqələndirici struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə qeyd olunan Strateji Yol Xəritəsi üzrə tədbirlərin icra vəziyyəti müzakirə edilib və əvvəlki iclaslarda tədbirlərlə bağlı verilmiş tapşırıq və tövsiyələrin icrası barədə hesabat məruzələri dinlənilib.

İclasda sözügedən Strateji Yol Xəritəsi üzrə tədbirlərin, xüsusilə də 2017-ci ildə icra müddəti başa çatan tədbirlərin prioritetliyi nəzərə alınaraq, cari ilin 1-ci yarımilliyi üzrə icra vəziyyətinin qiymətləndirilməsinə dair İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ümumiləşdirilmiş hesabatlarında verilmiş tövsiyələr bir daha müzakirə edilib, görülməsi tələb olunan işlərə və gözlənilən nəticələrə dair fikir mübadiləsi aparılıb.

Strateji Yol xəritələrində İqtisadiyyat Nazirliyinin icraçı olduğu tapşırıqların icra vəziyyətinin nazirlik üzrə aidiyyəti əlaqələndirici struktur bölmələrin və icraçıların iştirakı ilə müzakirəsinin aparılması tədbirləri davam etdirilir.

Azərbaycanın növbəti ixrac missiyası Dubaydadır

Azərbaycanın növbəti ixrac missiyası Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindədir.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə təşkil olunmuş ixrac missiyasına meyvə şirələri, təbii mineral sular, meyvə-tərəvəz məhsulları, quru meyvə, konservləşdirilmiş məhsullar, bal, çay, süd və süd məhsullarının, ət və ət məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən yerli şirkətlərin nümayəndələri daxildir. Azərbaycanın iş adamları Birləşmiş Ərəb Əmirliklərinin şirkətləri ilə ikitərəfli görüşlər keçirib, Azərbaycan məhsullarının market və bazarlarda satış imkanları və distributorluq məsələləri müzakirə olunub. Azərbaycanın "Brightman BMC" şirkətinin konservləşdirilmiş məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə və Banladeşə ixracına dair "Al-maya" və "Lulu" marketlər şəbəkələri və "Al-Ghamdi trading" şirkəti ilə ilkin razılıq əldə edilib.

Azərbaycanın "Sunfood" şirkəti nar şirəsinin və çayın, "Kerkom" və "Azəri" şirkətləri isə balın Birləşmiş Ərəb Əmirliklərinə ixracına dair "Al-maya", "Lulu", "Al-Qudva" marketlər şəbəkələri ilə danışıqlara başlayıb.

İxrac missiyasının iştirakçıları, həmçinin bazar və iri marketlər şəbəkələrinin fəaliyyəti ilə tanış olublar.

Azərbaycandakı müəssisələrin özəlləşdirilməsinə xarici investorların cəlbi mühüm əhəmiyyət daşıyır

"Azərbaycanda hazırda iri müəssisələrin özəlləşdirilməsi nəzərdə tutulur. Belə müəssisələrin özəlləşdirilməsinə xarici investorların cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir". Bu sözləri Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənov "Recexpo III" sərgisi çərçivəsində noyabrın 29-da keçirilən "Daşınmaz əmlak, özəlləşdirmə və investisiyalar" mövzusunda beynəlxalq konfransda deyib. Bakı Ekspo Mərkəzində təşkil olunan konfransda bir çox ölkələrin dövlət qurumlarının, eləcə də xarici ölkələrin ölkəmizdəki səfirliklərinin, beynəlxalq təşkilatların 100-dən çox nümayəndəsi iştirak edib.

Konfransın məqsədi daşınmaz əmlak idarəçiliyi və özəlləşdirmə, o cümlədən ölkəmizdə daşınmaz əmlak bazarının formalaşdırılması sahəsində xarici ölkələrin aidiyyəti dövlət, qeyri-hökumət və özəl qurumları ilə əlaqələrin qurulması olub. Eyni zamanda, beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığın inkişafı, habelə bu sahələrdə birgə fəaliyyət imkanları və beynəlxalq təcrübə haqqında geniş müzakirələrin aparılması da əsas vəzifələrdəndir. Həmçinin ölkəmizdəki özəlləşmə imkanlarının və perspektivlərinin nümayişi, yerli və xarici investor kütləsinin özəlləşmə prosesinə cəlb edilməsi də tədbirin məqsədləri sırasında yer alıb.

K.Həsənov bildirib ki, həyata keçirilən iqtisadi islahatlar fonunda daşınmaz əmlak idarəçiliyi və özəlləşdirilmə sahəsində mühüm tədbirlər reallaşdırılmaqdadır. Ölkə iqtisadiyyatının hazırkı inkişaf səviyyəsinə çatmasında özəlləşdirmənin də rolu az olmayıb, minlərlə dövlət müəssisəsi, on minlərlə kiçik dövlət müəssisə və obyekti uğurlu özəlləşdirmə nəticəsində sahibkarların mülkiyyətinə keçib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən, özəlləşmə prosesinin müasir yanaşmalar əsasında həyata keçirilməsi, əmlak idarəçiliyində modern üsulların tətbiqi, bu sahədə şəffaflığın maksimum artırılması istiqamətində ardıcıl tədbirlər görülüb. Nəticədə bu sahədə iqtisadi fəallıq güclənib, biznes mühiti daha da yaxşılaşdırılıb. Azərbaycan əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində aparılan islahatların nəticəsində "Qlobal Rəqabətlilik Hesabatı"nda ölkəmizin mövqeyi ötən ilə nisbətən 2 pillə yaxşılaşaraq 37-ci yerdən 35-ci sıraya yüksəlib. Azərbaycan "Doing Business 2018" hesabatında əmlakın qeydiyyatının sadəliyinə görə ötən illə müqayisədə daha bir pillə irəliləyərək 21-ci yerdə qərarlaşıb.

Komitə sədri bildirib ki, daşınmaz əmlak və torpaq idarəçiliyini, özəlləşdirmə proseslərini əhatə edən 36 elektron xidmət əhalinin istifadəsinə verilib.

K.Həsənov deyib ki, hazırkı mərhələdə özəlləşdirilən dövlət əmlakı müstəqil qiymətləndiricilər və məsləhətçilər cəlb olunmaqla bazar prinsipləri əsasında qiymətləndirilir, açıq hərraclar və investisiya müsabiqələri vasitəsilə özəlləşməyə çıxarılır. Özəlləşdirilmə prosesində şəffaflığın daha da artırılması, potensial yerli və xarici investorlar üçün optimallığın və informasiya təminatının genişləndirilməsi məqsədilə "Özəlləşdirmə portalı" fəaliyyət göstərir. Portal vasitəsilə özəlləşməyə çıxarılan dövlət əmlakı barədə bütün iqtisadi və maliyyə göstəricilərini özündə ehtiva edən geniş spektrli məlumatlar təqdim olunur. Portala baxış sayı artıq 1 milyonu ötüb. İctimaiyyətin, media nümayəndələrinin sərbəst iştirakı ilə müasir yanaşmalar əsasında 60-a yaxın hərrac keçirilib. Bu hərraclarda 1400-dən çox dövlət əmlakı özəlləşməyə çıxarılıb.

"Azərbaycanda hazırda iri müəssisələrin özəlləşdirilməsi nəzərdə tutulur. Belə müəssisələrin özəlləşdirilməsinə xarici investorların cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Maşınqayırma metallurgiya, dəzgahqayırma, cihazqayırma, kimya, yeyinti məhsulları, kənd təsərrüfatı, yüngül sənaye, səhiyyə, mədəniyyət, idman və turizm sektorlarında özəlləşdirmə sahəsində əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Onlar üçün ən əlverişli investisiya mühitinin yaradılması baxımından özəlləşdirilən müəssisələrin dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına olan borclarının silinməsi və digər imtiyazlar müzakirə edilir", - deyə K.Həsənov vurğulayıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun daha da inkişaf etdirilməsi sahəsində uğurlu sosial-iqtisadi islahatlar həyata keçirilməkdədir. Həmin islahatlar fonunda özəlləşmə prosesində də yeni yanaşmalar tətbiq edilir, əmlak idarəçiliyi müasir standartlar əsasında qurulur. Bu isə respublikanın əmlak sektoruna, o cümlədən özəlləşdirilmə prosesinə yatırılan xarici investisiyaların artmasına şərait yaradır.

Konfransda Belarus Respublikasının Dövlət Əmlak Komitəsinin sədri Andrey Qayev, Dubay Daşınmaz Əmlak Departamentinin Daşınmaz Əmlak üzrə İnvestisiyaların İdarəedilməsi və Təşviqi Mərkəzinin baş direktoru Məcid Saqer Al-Marri çıxış etmişlər.

UNEC-də konfrans: "Tələb işəgötürənlərdən – təklif UNEC-dən"

UNEC-də "Tələb işəgötürənlərdən – təklif UNEC-dən" mövzusunda konfrans keçirilib.

UNEC-in rektoru, professor Ədalət Muradov ölkə başçısının "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda insan kapitalının inkişaf etdirilməsini təhsil sisteminin əsas məqsədi kimi qarşıya qoyduğunu bildirib. İnsan kapitalının inkişafında ən vacib elementlərdən birinin praktiki vərdişlərə yiyələnmək olduğunu deyən rektor UNEC-in işəgötürənlərin irəli sürdüyü tələblərə cavab verən təkliflərlə çıxış etməyə hazır olduğunu vurğulayıb, bu istiqamətdə qarşıya çıxan problemlərdən danışıb. Hər yeddi ildən bir mövcud ixtisasların 50 faizinin dəyər və əhəmiyyətini itirdiyinə diqqət çəkən Ə.Muradov iş adamlarından ibarət auditoriyanın qarşısında yerli, yoxsa beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığının həyata keçirilməsi sualını qoyub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümöv konfransda əmək bazarının qarşılaşdığı ən aktual problemlərə toxunulduğuna diqqət çəkərək, yerli əmək bazarında həddindən artıq sıxlıq müşahidə olunduğunu bildirib. Ölkə əhalisinin 71 faizinin əmək qabiliyyətli yaşda olduğunu deyən nazir iqtisadiyyatın bu sayda işçi qüvvəsini absorbsiya etməkdə çətinlik çəkdiyini bildirib. S.Müslümov növbəti ildə nazirlik tərəfindən gənclərin məşğulluğu üçün böyük bir proqrama start veriləcəyini də açıqlayıb. Son illərdə UNEC-in qazandığı uğurları qürurla izlədiyini bildirən nazir, əmək bazarı ilə bağlı bütün məsələlərdə məzunu olduğu universitetə dəstək olacağını vurğulayıb.

Millət vəkili Fazil Mustafa ali təhsil müəssisəsi ilə işəgötürənlər arasında dialoqun qurulmasının əhəmiyyətini vurğulayaraq, bu ideyanın inkişaf etdirilməsinin vacibliyini qeyd edib. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev bildirib ki, ölkə sürətlə inkişaf edir və əmək bazarının tələbləri də bu sürətə uyğunlaşır. Mövcud durumda yeni ixtisasların yaranmasına ehtiyac duyulduğunu bildirən M.Musayev əmək bazarında risk menecmenti ilə bağlı ciddi kadr çatışmazlığı olduğunu vurğulayıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı yerli əmək bazarında strateji baxışın vacibliyini qeyd edib.

Müzakirələrdən sonra iştirakçılar arasında online sorğu keçirilib. "Əmək bazarının tələblərinə uyğun kadr hazırlığında işəgötürənlərlə birgə fəaliyyət mümkündürmü?" sualına 70 faiz "Bəli" cavabını verib. Səsverməyə çıxarılan növbəti sual isə "Kadr hazırlığı yerli, yoxsa beynəlxalq əmək bazarının tələblərinə cavab verməlidir"? olub. Əsasını iş adamlarının təşkil etdiyi auditoriyanın 91 faizi beynəlxalq əmək bazarının tələblərinə uyğun kadr hazırlığının həyata keçirilməsini məqsədəuyğun hesab edib.

Tədbirdə "UNEC2B" platformasının təqdimatı keçirilib. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov Azərbaycanda və regionda ilk dəfə olaraq UNEC-in iş dünyasında tətbiq etdiyi "UNEC2B" platformasının hər iki tərəfə faydalı olacağını bildirib. Mövcud problemlərin həllində mühüm rol oynayacaq platformanın böyük rəqabət mühitində fəaliyyət göstərəcəyini diqqətə çatdırıb.

Konfransın sonunda Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Auditorlar Palatası və Bank Tədris Mərkəzi ilə əməkdaşlıq müqaviləsi imzalanıb.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin məlumatı

Son günlər kütləvi informasiya vasitələrində ölkə ərazisində göstərilən taksi xidmətlərinə görə 18 faiz dərəcə ilə əlavə dəyər vergisinin (ƏDV) hesablanması ilə bağlı məlumatlar yer alıb. Bununla əlaqədar Vergilər Nazirliyi bildirir ki, Azərbaycan Respublikasında qanuni əsaslarla fəaliyyət göstərən taksi fəaliyyəti ilə məşğul olan şəxslərin göstərdikləri sərnişin daşıma xidmətləri ƏDV-yə cəlb olunmayan xidmətlərdir və bu xidmətlərin istehlakçısı olan vətəndaşlar taksi xidmətlərinin dəyərini ödəyərkən həmin məbləğə ƏDV daxil edilmir.

1 yanvar 2017-ci il tarixdən vergi qanunvericiliyinə edilmiş dəyişikliyə əsasən, yalnız Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentin elektron ticarət qaydasında təqdim etdiyi iş və xidmətlərə görə vergi orqanında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən qeyri-rezidentə aparılan ödəmələrdən ƏDV tutulur.

Qanunvericiliyə edilmiş dəyişikliyə uyğun olaraq, Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmadan müxtəlif elektron informasiya sistemləri vasitəsilə, o cümlədən mobil tətbiqetmələr vasitəsilə ölkə ərazisində minik avtomobilləri ilə sərinişin daşıma fəaliyyətini təşkil edən xarici şirkətlərin (UBER, Taxify və s.) elektron ticarət qaydasında göstərdikləri xidmətlər 1 yanvar 2017-ci il tarixdən ƏDV-yə cəlb edilir. Ölkə ərazisində taksi xidmətlərinin təşkili ilə bağlı həmin xarici şirkətlərin göstərdikləri xidmətlərinin dəyəri ƏDV daxil olmaqla formalaşan dəyərdən ibarət olduğundan bu xarici şirkətlərə pul köçürülərkən həmin məbləğlərə ƏDV də daxil edilir.

Dövlət vergi orqanlarında qeydiyyata alınaraq ölkə ərazisində qanuni əsaslarla sərnişin daşıma fəaliyyətini həyata keçirən yerli hüquqi və fiziki şəxslərin, habelə xarici şirkətlərin Azərbaycan Respublikasındakı nümayəndəliklərinin göstərdikləri taksi xidmətlərinin müqabilində müştərilər tərəfindən istər nağd qaydada, istərsə də ödəniş kartları vasitəsilə həmin şəxslərə ödənilən xidmət haqlarına görə ƏDV tutulmur.

Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən bütün hərraclar tam elektronlaşdırılıb

Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən daha bir innovativ layihə reallaşıb. Belə ki, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən bütün hərraclar tam elektronlaşdırılıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı, dekabrın 6-da "Dövlət əmlakının özəlləşdirilməsində elektron hərracların tətbiqi: müasirlik və şəffaflıq" mövzusunda təqdimat keçirilib.

Bu layihənin reallaşdırılması nəticəsində bütün növ dövlət əmlakını heç bir yerə getmədən bir virtual məkandan Elektron hərrac vasitəsilə özəlləşdirmək mümkündür. Başqa sözlə, nəinki nəqliyyat vasitələrinin, həmçinin kiçik dövlət müəssisələrinin, səhmdar cəmiyyətlərin səhm paketlərinin, qeyri-yaşayış və torpaq sahələrinin hərracı tam elektronlaşdırılıb. Bundan sonra ölkə vətəndaşları və iş adamları dünyanın istənilən nöqtəsindən özəlləşdirmə hərraclarına onlayn qatılıb, bütün növ dövlət əmlakının özəlləşdirilməsində iştirak edə bilərlər.

Qeydiyyatdan keçmək, hərraclarda iştirak etmək üçün sifariş vermək, hərracın gedişatını birbaşa olaraq onlayn şəkildə izləmək kimi proseslər elektron müstəviyə keçib.

Təqdimatda çıxış edən komitənin strateji araşdırmalar, innovasiyalar, monitorinq və təhlil şöbəsinin müdiri Şamil Şirinov bildirib ki, Prezident İlham Əliyevin müvafiq Fərman və tapşırıqlarına əsasən, daşınmaz əmlakın özəlləşdirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması istiqamətində, innovasiyaların tətbiqi, bu sahədə şəffaflığın təmin edilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində daim yeniliklər edilir. Qeyd edilib ki, hərraclarda elektron iştirak etmək istəyənlər komitənin "emdk.gov.az" rəsmi səhifəsi ilə izləyə bilərlər. Bu məqsədlə saytda xüsusi keçid də yaradılıb. Elektron hərracdan istifadə mexanizmi kifayət qədər sadə və rasionaldır. Bununla yanaşı, komitənin "privatization.az" saytı vasitəsilə bir virtual məkanda özəlləşdiriləcək əmlak və müəssisələr barədə məlumat əldə etmək və onlayn rejimdə hərracda iştirak etmək imkanları yaradılıb.

Tədbirdə bildirilib ki, istənilən vətəndaş, iş adamı elektron imzadan istifadə edərək, Əmlak Məsələləri Dövlət komitəsinin rəsmi saytından (e-emdk.gov) və ya "Elektron hökumət" portalından (e-gov.az) qeydiyyatdan keçmiş hər bir sifarişçi hərrac günü onlayn qaydada aktiv hərraca qatılmaq imkanı qazanır.

Hərraclarda iştirak etmək üçün sifariş vermək də elektron qaydada həyata keçirilir.

Komitə tərəfindən mütəmadi olaraq İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzində açıq və şəffaf hərraclar keçirilir. Hərraclar vasitəsilə müxtəlif növ iqtisadi sahələrə aid olan səhmdar cəmiyyətlərin səhm paketləri, kiçik dövlət müəssisələri, istifadəsiz qeyri-yaşayış sahələri, nəqliyyat vasitələri özəlləşdirilməyə çıxarılır. Tədbirdə "Dövlətə məxsus əmlakların özəlləşdirilməsi ilə bağlı elektron hərrac" xidmətinin istifadə qaydaları, üstünlükləri barədə təqdimat olub və bu proses əyani nümayiş etdirilib. Elektron hərracda iştirak etmək istəyən şəxs ƏMDK-nın rəsmi saytına (e-emdk.gov) və ya "Elektron hökumət" portalına (e-gov.az) daxil olaraq müvafiq bölməni seçir.

Qeydiyyatdan keçmiş şəxs (iştirakçı) hərracda canlı və yaxud onlayn rejimində iştirak edə bilər. Bunun üçün iştirakçı hərrac günü göstərilən vaxt hərrac keçirildiyi yerə gəlməli, yaxud hərracın keçirildiyi zaman komitənin portalında müvafiq bölməyə keçərək hərracda iştirak etməlidir. Sifarişlərin qəbulu hərracın başlanmasına ən gec üç bank günü qalmış bitir.

Hərracda ən yüksək qiymət təklif etmiş iştirakçı qalib elan edilir. Ekranda hərracın tarixi, əmlakın satılması barədə məlumat, satış qiyməti və qalib alıcının nömrəsi qeyd olunur.

Hərrac günü müəyyən olunmuş vaxtda hər bir istifadəçi (qeydiyyatdan keçmiş və keçməmiş) e-hərracın gedişini https://e-emdk.gov.az/eHerrac/Home/Presentation linkindən izləyə bilər.

Qanunvericiliyə uyğun olaraq, hərracın canlı və ya virtual iştirak etmiş qalibi 30 (otuz) bank günü müddətində ödənilməli olan pul vəsaitini satıcının müəyyən etdiyi hesaba köçürür.

Alıcı göstərilən müddət ərzində ödənilməli olan məbləği ödəmədiyi halda onun tərəfindən ödənilmiş beh geri qaytarılmır, tam məbləğdə dövlət büdcəsinə köçürülür, əmlak isə satıcının sərəncamında qalır.

Ödəniş tam keçdikdən sonra əmlak müvafiq qurumlar tərəfindən qalib alıcının adına rəsmiləşdirilir.

Qeyd edək ki, komitənin fəaliyyət istiqamətləri üzrə istifadə edilən 36 elektron xidmətdən 11-i dövlət əmlakının özəlləşdirilməsi ilə bağlıdır.

Vergilər Nazirliyi işə qəbul üzrə müsabiqə elan edib

Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olunmaq istəyən Azərbaycan Respublikası vətəndaşları üçün müsabiqə elan edib.

Müsabiqəyə sənədlər elektron ərizə vasitəsilə cari ilin 05-20 dekabr tarixləri arasında qəbul edilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizəyə sağlamlıq haqqında tibbi arayışın və ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada elektron fayl şəklində əlavə olunmalıdır.

Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Sənədlər qəbul edildikdən sonrakı beş gün ərzində ərizə qəbul edilərsə, namizədin elektron poçt ünvanına onun iş nömrəsi, sınaq imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə bunun səbəbi barədə məlumat verilir.

Sənədləri qəbul edilmiş namizədlər 24-26 yanvar 2017-ci il tarixlərində səhər saat 10:00-dan 18:00-dək imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 28.01.2017-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcək.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını (məntiq və informatika sahələri üzrə suallar istisna olunmaqla) özündə əks etdirən ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) "İşə qəbul. Müsabiqələr" bölməsində yerləşdirilib.

Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

AİB iqtisadiyyatın diversifikasiyası üçün Azərbaycana 250 milyon dollar kredit ayırıb

Asiya İnkişaf Bankı (AİB) "Dövlət idarəçiliyinin və dövlət sektorunun effektivliyinin təkmilləşdirilməsi" layihəsinin birinci proqramı çərçivəsində Azərbaycana 250 milyon dollar həcmində kreditin ayrılmasını təsdiq edib.

Trend-in məlumatına görə, birinci proqram çərçivəsində iqtisadi diversifikasiyanın əldə olunması planlaşdırılır.

TASİM layihəsi ticarət, turizm və iqtisadi inkişafa töhfə verəcək

Dekabrın 5-də "Bakutel-2017" XXIII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransı çərçivəsində "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsi üzrə növbəti yüksək səviyyəli görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə İKT sahəsinin inkişafı istiqamətində Azərbaycanda həyata keçirilən islahatlar fonunda TASİM layihəsinin əhəmiyyətindən söz açıb. Layihəyə qlobal səviyyədə siyasi dəstək verildiyini də qeyd edən nazir 2009, 2012 və 2013-cü illərdə BMT-nin Baş Assambleyasında TASİM layihəsi ilə bağlı üç qətnamənin yekdilliklə qəbul olunduğunu xatırladıb.

"Bilirsiniz ki, ilboyu biz müxtəlif formatlı tədbirlərdə görüşürük və TASİM layihəsini də daim diqqətdə saxlayırıq. İl ərzində TASİM konsorsiumuna daxil olan 4 ölkənin (Rusiya, Çin, Türkiyə, Qazaxıstan) Bakıdakı səfirləri, həmçinin Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) nümayəndəsi ilə görüşlər keçirilib. Bunun davamı olaraq, sentyabrda Almatı şəhərində TASİM işçi qrupunun növbəti iclası təşkil olunub. Həmçinin, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində TASİM layihəsi üzrə xüsusi alt qrup fəaliyyət göstərir və bu ilin noyabrında Türk Şurasının İstanbulda keçirilmiş nazirlər görüşündə digər məsələlərlə yanaşı, TASİM layihəsi üzrə faydalı müzakirələr apardıq", - deyə nazir bildirib.

Görüşdə Türkiyə Respublikasının nəqliyyat, dənizçilik və kommunikasiya naziri Əhməd Arslan, Rusiyanın rabitə və kütləvi kommunikasiyalar nazirinin müavini Rəşid İsmayılov, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjao, Çinin Sənaye və İnformasiya Texnologiyaları Nazirliyinin nümayəndəsi Çen Jiaçun çıxış etmişlər.

Sonda tərəflərin birgə qərarı ilə layihənin reallaşdırılması üzrə işlərin intensivləşdirilməsi üçün memorandumun imzalanması ilə bağlı qərar qəbul olunub.

Məlumat üçün bildirilir ki, vacib regional təşəbbüs olan "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin məqsədi Qərbi Avropadan Şərqi Asiyaya qədər Avrasiya ölkələrini əhatə edən transmilli fiber-optik xəttin çəkilməsidir. Layihə Frankfurt şəhərindən Honq Konq şəhərinə istiqamətlənən əsas tranzit xəttinin qurulmasını nəzərdə tutur. Bu xətt Avropa və Asiyanın ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirəcək. Tranzit xətti Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyədən keçərək Almaniyaya çatacaq. Ehtiyat Şimal tranzit xətti Rusiya, Ukrayna və Polşa ərazisindən keçəcək.

İmişlidə məhsul bayramı

Dekabrın 5-də İmişlidəki mədəniyyət sarayında məhsul bayramı keçirilib.

Məhsul bayramı rayonda istehsal olunan kənd təsərrüfatı və sənaye məhsullarından ibarət sərginin nümayişi ilə başlanılıb.

Bayram mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev rayonda məhsul istehsalının ildən-ilə artdığını bildirib. Qeyd olunub ki, bu il rayonda 57 min 775 ton taxıl istehsal edilib, 15 min 641 hektar sahədə pambıq, 539 hektar bostan-tərəvəz bitkiləri və 485 hektar şəkər çuğunduru əkilib, 8 min 949 ton ət, 37 min 167 ton süd istehsal olunub. Məhsul bolluğunun emal sənayesinin də inkişafına şərait yaratdığı, İmişlinin həm də sənaye rayonlarından birinə çevrildiyi diqqətə çatdırılıb. Bildirilib ki, son illər rayonda "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin kəllə qənd, qarışıq yem, bitki yağları, spirt emalı, çuğundur qurutma zavodları, Bəhrəmtəpə qəsəbəsində 50 min tonluq taxıl anbarı, Qaragüvəndik kəndində damazlıq yumurta istehsal edən "Araz Damazlıq quşçuluq" MMC, "İmişli Broyler" və "Araz" konservləşdirilmiş şirələr və konyak zavodu və digər istehsal müəssisələri istifadəyə verilib. İcra hakimiyyətinin başçısı son illər rayonda aparılan abadlıq-quruculuq işləri, təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişafı, yeni iş yerlərinin açılması istiqamətində həyata keçirilən layihələr barədə də mərasim iştirakçılarına məlumat verib.

Bayram tədbiri başa çatdıqdan sonra rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev, Milli Məclisin deputatları Çingiz Qənizadə, Rüfət Quliyev, Rövşən Rzayev və digər qonaqlar şəkər zavoduna gələrək, burada istehsal prosesi ilə tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi istiqaməti üzrə

Ölkəmizin ixrac potensialının artırılması üçün yeni imkanlar açılır

Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə ölkəmizdə qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqaməti kimi götürülmüş, iqtisadiyyatın şaxələndirilməsi, geniş diversifikasiyası əsas məqsəd kimi ön plana çəkilmişdir. Hazırda ölkəmizdə qeyri-neft sektorunun əsas qollarından olan kənd təsərrüfatının bir çox sahələrinin inkişafı üçün geniş imkanlar və perspektivlər yaranmışdır. Bu baxımdan ölkədə kənd təsərrüfatının istər qida, istərsə də digər ənənəvi sahələri olan pambıqçılıq, üzümçülük, baramaçılıq, tütünçülük, çayçılıq kimi vaxtilə böyük inkişaf yolu keçmiş, son illərdə isə, təəssüf ki, tənəzzülə uğramış sahələrinin yenidən canlandırılması göz qabağındadır. "2014-2018-ci illər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulduğu kimi, bu gün bu sahələrə xüsusi diqqət ayrılması -regionlarda geniş infrastruktur layihələrinin həyata keçirilməsi, innovasiyalara əsaslanan aqroparkların təşkili, sahibkarlığın inkişafına dəstək verilməsi baxımından əlverişli biznes və investisiya mühitinin yaradılması qeyri-neft sektorunun inkişafına nail olmağın və ölkənin ixrac potensialının artırılmasının ən məqsədəuyğun yoludur.

Məlumdur ki, aqrar sahənin bu və ya digər dərəcədə inkişafı ölkənin malik olduğu təbii-coğrafi iqlim şəraiti ilə bilavasitə bağlıdır. Xoşbəxtlikdən ölkəmizin yerləşdiyi coğrafi ərazi və mülayim iqlim qurşağı nəinki qonşu ölkələrdə, hətta dünya miqyasında nadir təsadüf olunan, istifadəsinə görə bir çox sahələrdə olduqca faydalı hesab edilən bitkilərin yetişdirilməsi baxımından çox əlverişlidir. Söhbət açacağımız kənd təsərrüfatı məhsulu həm təbabətdə, eləcə də bir çox sənaye sahələrində geniş istifadə imkanlarına malik olan biyan bitkisidir.

Biyanın əhəmiyyəti

Təbabət və yeyinti sənayesində kifayət qədər qiymətli məhsul kimi işlədilən biyanın müalicəvi xüsusiyyətlərinə görə bir çox xəstəliklər zamanı istifadəsinin tarixi çox qədimdir. Qədim Çin əlyazmalarında qeyd olunurdu ki, biyan kökü orqanizmi cavanlaşdırır, möhkəmləndirir, dərini təravətli edir, duyğu orqanlarının fəaliyyətini yüksəldir. Onu yuxarı tənəffüs yollarının xəstəlikləri, eləcə də mədə xorası, allergik dermatit, ekzema, bronxial astma, həmçinin keyfiyyətsiz ət məhsulları və göbələklərlə zəhərlənmə zamanı qəbul edirlər. Hazırda elmi təbabətdə təsdiq olunmuşdur ki, biyan kökünün təxminən 23%-ni ən qiymətli komponent hesab olunan qlisirin turşusu təşkil edir.

Yabanı halda biyan Cənub-Şərqi Avropanın, Şimalı Afrikanın, Rusiyanın cənub zonaları, Qərbi Sibirin, Şimalı Qafqazın mülayim iqlim zonalarında, Orta Asiya və Qafqazda bitir. Biyan bitkisinin elmə məlum 18 növündən 8-nə Azərbaycanın Kür-Araz, Samur-Dəvəçi ovalıqlarında, Muğanda, Naxçıvan düzənliklərində təsadüf olunur. Biyan məhsuluna kökü və ekstraktı daxildir.

Ölkəmizdə biyançılığın tarixi

Biyançılığın Azərbaycanda 19-cu əsrin sonunda sürətlə inkişaf etməyə başlaması tarixi mənbələrdən məlum olur. Biyan kökünə olan maraq haqqında **Həsən bəy Zərdabi** 1893-cü ildə yazırdı: "Təbii çoxalan biyan Zərdabın, demək olar ki, bütün sututar ərazilərində yetişirdi. Əvvəllər biyandan ancaq mal-qara üçün qaba yem kimi, oduncağından isə ocaqda yandırmaq üçün istifadə edirdilər. Biyan kökü şəkər istehsalı üçün əvəzsiz xammal kimi kəşf edildikdən sonra onun sənayedə istifadə olunması zərurəti meydana çıxdı.19-cu əsrin 60-cı illərində Moskvada yaşayan 2 nəfər Şamaxı sakini **Zərdabın Əlvənd** kəndində biyan kökü şirəsi istehsal etməyə başladı və biyan kökü tədarük etmək zərdablılar üçün yeni bir istehsal fəaliyyəti növünə çevrildi".

Azərbaycanda 19-cu əsrdə sənayenin inkişafını təhlil edən akademik Ə.Sumbatzadənin əsərlərində ötən yüzilliyin 80-90-cı illərində Azərbaycanın Gəncə, Ucar, Ağdaş, Kürdəmir rayonlarında xarici sahibkarların məxsus olduğu biyan müəssisələrinin fəaliyyəti haqqında geniş məlumat verilir: "Yerli sakinlərin yığdığı biyan kökünü xarici şirkətlər çox ucuz qiymətə satın alır, xammal kimi, eləcə də müəyyən emal mərhələlərindən keçirərək kök və ondan alınan şirə şəklində Avropaya, Amerikaya ixrac edirdilər. Ümumilikdə, bu dövrdə biyan kökünün çıxarılması və emalı ilə məşğul olan bütün fabriklərdə orta hesabla 250 fəhlə işləyirdi ki, onların orta illik istehsal məhsulunun məbləği 800 min rubldan az deyildi".

Sonrakı illərdə biyan emalının həcmi təxminən ildə 50000 tona çatırdı. 1929-1934-cü illərdə bütünlüklə Azərbaycanda hər hektardan 11,86 tona yaxın məhsul ehtiyatı tədarük edilmişdi. Lakin 30 il sonra aparılan tədqiqatlar göstərdi ki, biyanın bitdiyi ümumi sahələr 5 dəfə, ümumi ehtiyatlar isə 4 dəfə azalmışdı. Sovet dövründə isə bu qiymətli məhsulun istehsalı getdikcə zəifləmiş, "mərkəzdən" verilən göstərişlərə əsasən, digər məhsullarla əvəzləşdirilərək "sovet iqtisadiyyatına" xidmət etmişdir.

Müasir dövrdə biyançılıq

Müstəqillik dövrü malik olduğumuz təbii sərvətlərdən ölkəmizin mənafeyi baxımından istifadəyə yeni imkanlar açdığından biyançılıq sənayesinin inkişafına da şərait yaratmışdır. Vaxtilə biyana olan tələbatın xarici şirkətlər tərəfindən bu qədər böyük olması bizdə də biyan istehsalının ölkəmizdə bugünkü vəziyyətini öyrənmək və bu sahədə bəzi təhlillər aparmaq marağını oyatdı. Kənd təsərrüfatı nazirliyindən aldığımız məlumata görə, 1991-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin nəzdində 20-ə yaxın rayonda biyan tədarükünü birləşdirən Biyan Birliyi müəssisəsi yaradılmışdı. 10 ilə yaxın fəaliyyət göstərən bu müəssisədə biyan məhsulları xammal və yarımfabrikat şəklində ABŞ, Almaniya, İtaliya, Türkiyə şirkətlərinə 1 tonu 160-350 ABŞ dollarına satılırdı. 1991-2001-ci illərin statistikası ölkədə biyan istehsalının və ixracının getdikcə artdığını, satışdan ölkəyə hər il 1milyon ABŞ dollarından çox vəsait ödənildiyini göstərir. Bundan başqa, birliyə daxil olan hər müəssisədə onlarla insan çalışır, əməkhaqqı ilə təmin olunurdu. Lakin sonralar birliyə daxil olan müəssisələr ayrılıqda

fəaliyyətini davam etdirdilər. Biyanın çox təsadüf edildiyi bir sıra rayonlarda belə müəssisələr bu gün də fəaliyyət göstərirlər.

Bugünkü reallıq

Hazırda biyan köklərinin 1 tonu xarici şirkətlərə 200 ABŞ dollarına satılır, lakin emala məruz qaldıqda daha baha qiymətə satılması mümkündür. Ağdaş rayon Kənd təsərrüfatı idarəsinin rəis əvəzi Elsevər Baxışovun sözlərinə görə, hazırda Ağdaş rayonunda yeni biyan tədarükü və emalı müəssisəsi tikilir. Zavodda biyan kökü emalı üçün dəyirman, istixana mərkəzi, qurutma məntəqələri, məhsulların saxlanılması üçün anbar inşa edilmişdir. Zavodun tikintisi 11 hektar sahəni əhatə edir, əkin sahəsi 1100 hektardır. Müəssisənin istehsal gücü sutkada 50 tondur. Müəssisə tam istehsala başladıqda burada 150 nəfər işçinin işlə təmin olunacağı gözlənilir. Bu il 220 hektar sahədə biyan əkilib. Yazda əkin sahəsinin genişləndirilərək 1000 hektar sahəyə çatdırılacağı nəzərdə tutulmuşdur. Müəssisənin həm xammal tədarükü, eləcə də yarımfabrikatların, əczaçılıq məhsullarının hazırlanması istiqamətlərində fəaliyyət göstərməsi planlaşdırılıb.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, ümumilikdə ötən il respublikamızdan xarici ölkələrə 118 ton biyan ixrac olunmuşdur ki, əvəzində ölkəyə 1 milyon 405 min ABŞ dolları vəsait daxil olmuşdur. Bu ilin 8 ayı ərzində ölkədən 72 ton məhsul ixrac olunmuşdur ki, bu da 680 min ABŞ dolları deməkdir.

Müasir dövrdə elm və texnologiyalar tərəqqi etdikcə biyanın təsərrüfatda əhəmiyyəti və istifadəsi get-gedə artmaqdadır. Əczaçılıq, tütün, kosmetologiya, ərzaq və içki istehsalı sahələri biyan ekstraktının istifadə olunduğu əsas sahələrdir. Biyan ekstraktı unikal və əvəzolunmaz ətrə malikdir. Buna görə də qlobal ərzaq istehsalçıları biyan ekstraktını qiyməti çox yüksək olduqda belə almağa davam edirlər və dünya bazarında biyan ekstraktı hazırlayan şirkətlərin sayı o qədər də çox deyil.

Bu sahədə mövcud olan problemlər və ölkəmizin ixrac imkanları

Biyançılıq sahəsinin ən zəif cəhəti ondadır ki, bu bitki dərildikdən sonra tez bir zamanda bərpa olunmur. Bəlkə elə buna görə də aparılan araşdırmalar nəticəsində onun istehsalının ildən-ilə azaldığı müşahidə olunmuşdur. Dərildikdən yalnız bir neçə il sonra xeyli vəsait hesabına bərpası mümkün olduğundan fermerlər bu sahəyə nisbətən az diqqət göstərirlər. Təəssüf ki, biyan yetişən ərazilərin və biyan kökü ehtiyatının dəqiq hesablamasını aparmaq bir sıra səbəblərdən çətinlik yaradır. Hər il sistemsiz və intensiv xammal yığımı nəinki plantasiyaların ölçülərini kiçildir, həm də potensial məhsuldarlığı azaldır. Bir çox ölkələrdə təbii resursların mühafizəsinə cavabdeh olan təşkilatlar haqlı olaraq biyançılıqla məşğul olmağa xüsusi icazə və lisenziyası olmayanlar tərəfindən kütləvi şəkildə biyanın qeyri-qanuni yığımına qarşı ciddi tədbirlər görürlər. Bu problem hazırda ölkəmizdə də biyançılıqla məşğul olan yerli fermerləri çox narahat edən məqamlardan biridir. Bundan əlavə, aqrar sahənin ən böyük çətinliklərindən biri təbiətdə baş verən dəyişikliklərin məhsuldarlığa gözlənilməz təsirləri, eləcə də dünya bazarında meydana çıxan iqtisadi çətinliklərdir. Lakin bununla belə, hazırda respublikamızın Beyləqan, Ağcabədi, İmişli rayonlarında yabanı halda bitən biyan bitkisi xammal və yarımfabrikat halında BƏƏ, İran, Türkiyə, Çinə, Yaponiyaya, Almaniyaya ixrac edilir. 2014-cü ildən başlayaraq Azərbaycanda biyan ekstraktının ixracı kəskin yüksəlmişdir. Mütəxəssislərin fikrincə, Azərbaycan üçün Rusiya və Türkiyə kimi region, bir sıra Avropa ölkələri biyan ekstraktının ən böyük idxalçıları qismində potensial bazar hesab oluna bilər.

Gələcək perspektivlər

Hesab edirik ki, müasir dövrdə kənd təsərrüfatının digər sahələri kimi, biyançılığın inkişafına yetərincə diqqət yetirilməsi, bu sahə ilə məşğul olan sahibkarlara güzəştli kreditlərin verilməsi biyançılığa olan marağı daha da artıra bilər. İstər tibbi, istərsə də yüksək sənaye əhəmiyyətli bu qiymətli bitkinin yerli istehsalının artırılması üçün bütün real qüvvələri səfərbər etmək, onun tədarükü imkanlarını genişləndirmək, onun emalı sənayesini təkmilləşdirmək həm sosial baxımdan regionlarda yerli sakinlərin işlə təmin olunması istiqamətində öz töhfəsini verər, həm də iqtisadi cəhətdən ölkəmizə külli miqdarda xarici valyutanın qazanılmasına təminat yaradar. Hazırda qlobal qida bazarında əsas meyillər şəkərsiz məhsulların, əczacılıq sənayesində isə daha çox təbii inqridiyent tərkibli dərman maddələrinin istehsalına yönəldiyindən qarşıdakı illərdə biyan ekstraktı bazarında satışın daha da artacağı və 2016-cı ildəki 1,7 mlrd. dollarlıq bazar həcminin 2025-ci ildə 2,3 mlrd. dollar olacağı proqnozlaşdırılır. Azərbaycan bu fürsətdən məharətlə istifadə edib həm ölkəmizin ixrac imkanlarını artıra bilər, həm də dünya bazarında "Made in Azerbaijan" brendi altında bu qiymətli kənd təsərrüfatı məhsulunun ən böyük ixracatçılarından birinə çevrilə bilər.

Aytən SƏMƏDZADƏ

Bakı-Tbilisi-Qars dəmir yolu biznesin inkişafı üçün yeni imkanlar açır

Bakı-Tbilisi-Qars tarixi İpək Yolunun bir hissəsinin bərpası deməkdir və bundan Çin, Qazaxıstan, Orta Asiya, Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa ölkələri istifadə edəcəklər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Çox insanların, hətta bir sıra dövlətlərin belə xəyal saydığı möhtəşəm Bakı-Tbilisi-Qars dəmir yolu dünyanın gerçək nəqliyyat arteriyasına çevrildi. Bakı- Tbilisi-Qars dəmir yolu xətti iddialı beynəlxalq layihənin bir hissəsi, həm də vacib bir hissəsi olduğunu təsdiqlədi. Ona görə də buna sadəcə üç ölkə arasında yükdaşımalar üçün nəzərdə tutulan adi bir layihə kimi baxmaq düzgün deyil. Çünki bu layihədə rəsmən iştirak etməyən dünyanın bir çox nüfuzlu ölkələrinin də çox ciddi iqtisadi marağı var. Onun əsas ideyası Gürcüstan ərazisindən Azərbaycanı Türkiyə ilə birləşdirmək, Mərkəzi Asiyadan başlayaraq, Cənubi Qafqazdan keçməklə Avropaya uzanıb gedən daha qısa və ucuz alternativ nəqliyyat dəhlizini tamamlamaqdan ibarət idi və buna da nail olundu. Bu dəmir yolunun gerçəkləşməsi Azərbaycanın regional liderliyini, ölkəmizin bu rolunun beynəlxalq aləmdə qəbul edildiyini göstərən danılmaz faktdır.

Böyük İpək Yolunun bərpası ideyasının müəlliflərindən biri də məhz ümummilli lider Heydər Əliyev olmuşdur. Ona görə də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin konturları onun zamanında çəkilmişdi. Lakin bu möhtəşəm layihə ulu öndərin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən reallaşdırıldı.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II Qurultayındakı nitqində deyirdi: ***"Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bizim əsas vəzifələrimizdən biridir və biz buna nail olacağıq. Belə olan halda Türkiyə Azərbaycanla dəmir yolu vasitəsilə birləşəcək, bütün yüklər bu marşrutla həyata keçiriləcək. Eyni zamanda, o da aydındır ki, bizim torpaqlarımızı işğal edən, bizim ölkəyə qarşı təcavüz edən ölkə – Ermənistan bütün bu layihələrdən kənarda qalacaq".***

Bu gün dünyanın əksər siyasi və iqtisadçı ekspertlərinin çox tez-tez "Dəmir İpək Yolu" adlandırdıqları bu nəqliyyat dəhlizi Azərbaycan, Gürcüstan və Türkiyə ilə yanaşı, bütün regionun sürətli iqtisadi inkişafına güclü stimul verəcək. Çünki nəqliyyat marşrutları dünya iqtisadi mexanizminə həyat verən arteriyalardır. İqtisadiyyatı bu arteriyalar olmadan təsəvvürə gətirmək belə mümkün deyil. Bu gün Rusiya kimi nəhəng bir ölkə mövcud logistika sistemlərinin səmərəliliyinin dünya reytinqində 95-ci yeri tutur. Azərbaycanın, Gürcüstanın hansı mövqedə qərarlaşdığını dəqiq bilməsək də, onu bilirik ki, Bakı-Tbilisi-Qars dəmir yolu bu ölkələrin fəaliyyətdə olan logistika sistemlərinin səmərəliliyinin artırılmasında bir sıçrayış olacaq.

Bakı-Tbilisi-Qars təkcə siyasi maraqların təmin olunmasına deyil, eyni zamanda, Azərbaycanın iqtisadi maraqlarının təmin edilməsinə, ticarət iqtisadi münasibətlərinin genişlənməsinə, ölkənin biznes maraqlarının təmin edilməsinə yönələn bir layihədir.

Zamanın əhəmiyyətini düzgün qiymətləndirmək, xərclərə qənaət etmək və biznesdən maksimum gəlir götürmək üçün logistika faktorunun da böyük rolu var. Tarixən inkişaf etmiş dövlətlər də beynəlxalq və regional layihələrə eynən bu prinsipdən yanaşırlar. Asiyada sürətli iqtisadi inkişafı ilə möcüzələr yaradan Çin Xalq Respublikası heç də istisna deyil. Bu ölkə "Bir kəmər - bir yol" təşəbbüsünü inkişaf etdirməyə başlayandan Yaxın Şərq və Avropa istiqamətlərində fəal şəkildə ticarət-nəqliyyat dəhlizlərinin imkanlarını ciddi şəkildə araşdırırdı və elə onun maraq dairəsinə düşən ilk istiqamət Yeni İpək Yolu və bu yolun Cənubi Qafqaz ərazisindən keçən Bakı-Tbilisi-Qars dəhlizi olmuşdur. Ona görə də Çinin logistika mütəxəssisləri uzun müddət test rejimində Transxəzər və Transqafqaz marşrutlarının səmərəliliyini ciddi şəkildə araşdırırdılar.

Çinin bu məsələdə qətiyyət göstərməsinin əsasında onun iqtisadi maraqları durur. Çünki hazırda Çindən Avropaya daşınan yüklərin həcmi 240 milyon tonu keçir. Hesablamalara görə,

ÇXR ilə Avropa İttifaqı arasında əmtəə dövriyyəsinin həcmi hazırda 500 milyard dollar təşkil edir. Kiçik və çox sadə bir hesablama aparaq: əgər bu yükün hər tonunu sadəcə 5 dollar aşağı tariflə daşımağa nail olsalar, o zaman ölkənin biznes adamları ildə 1 milyard 200 milyon dollara qənaət etmiş olurlar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çinin məhz bu maraqlarına rəğmən qeyd edir ki, əgər bu həcmdə yükün heç olmasa 10 faizi "Orta dəhlizlə", yəni Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınarsa, o zaman BTQ-nin üzərinə 24 milyon ton əlavə yük düşür. Bu da çox az bir zamanda dəmir yolunun tikintisinə çəkilən xərcləri ödəmiş olur.

Xatırlayırsınızsa, 2015-ci il dekabrın 13-də məhz elə bu marşrut üzrə ilk eksperiment həyata keçirildi. Çinin Lyanunqyan terminalından çıxan yük qatarı 15 günə bütün Çin, Qazaxıstan, Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Poti limanından bərə ilə Türkiyəyə çatdı. O zaman Bakı-Tbilisi-Qars dəmir yol dəhlizi hazır olmasa belə, bu marşrut üzrə qət edilən məsafəni çox gözəl nəticə kimi qiymətləndirdilər. Çünki analoji dəniz yolu marşrutu 40-45 gün müddətinə yükü Türkiyəyə çatdırırdısa, burada 3 dəfə az vaxt sərf edilməklə yük son məntəqəyə çatdırıldı. Qonşu Rusiya ərazisindən keçən Transsibir marşrutuna gəldikdə isə Çin üçün bu yolun potensialı aydın idi. Belə ki, Çinin quru ilə daşınan 1,5 milyon ton yükü hər tonu 6-7 min dollara, məhz Transsibir magistralı ilə daşınırdı. Digər tərəfdən, yüklərin Rusiyadan və Qazaxıstandan Avropaya tranzitlə daşınmasının həcminin artırılmasına mane olan ikinci bir səbəb isə yük qatarlarının hərəkət sürəti idi. Transsibir dəmir yolunda sürəti azaltmağa məcbur edən "dar sahələrin" çoxluğu üzündən hərəkət sürəti təqribən saatda 12 kilometr təşkil edir. Çinin özündə isə konteyner qatarlarının sürəti saatda 40 kilometr təşkil edir. Bundan aydın oldu ki, Çinin meqa layihəsi olan "Bir kəmər - bir yol"a Yeni İpək Yolu və onun əsas hissəsinə çevriləcək Bakı-Tbilisi-Qars dəmir yolu daha sərfəli bir marşrutdur.

Dünyanın iqtisadçı ekspertləri bidirirlər ki, müxtəlif proqnozlara görə, 2020-ci ilə qədər Şərq-Qərb istiqamətində Çin tərəfdən Qərbə göndərilən yüklər 5 dəfə artaraq 1,3 milyon konteynerə çatacaq. Bunun 300 mini Qafqaz marşrutu ilə daşınacaq. Azərbaycan və Qazaxıstandan keçməklə Avropadan Mərkəzi Asiya ölkələrinə və Çinə yük axını, həm də əks istiqamətdə iki dəfədən çox artacaq. Beləcə, Azərbaycan, Gürcüstan və Qazaxıstan Avropa ilə Asiya arasında "tranzit habına" çevriləcək.

Qeyd olunur ki, Bakı-Tbilisi-Qars dəmir yolu Rusiya üçün Türkiyəyə "alternativ pəncərə" açaraq, gözlənilmədən tamamilə yeni imkanlar yaradır. Şübhə yoxdur ki, Rusiya Federasiyası ilə Türkiyə arasında yük dövriyyəsinin əhəmiyyətli hissəsi də bu marşrutla həyata keçiriləcək. Güman edilir ki, Azərbaycan və Gürcüstan yeni magistralı yükləmək üçün yüklərin kifayət qədər güzəştli tranzitinə də razılıq verə bilər. Belə olan halda, bu magistraldan daha çox xeyir götürən ölkələrdən biri də elə Rusiya olacaq. Çünki qonşu ölkə dəmir yolunun tikintisinə heç bir vəsait xərcləməyib. Bundan əlavə, Rusiyanın Şimali Qafqazda, Volqa sahili boyu ərazilərində, hətta Uralda və Sibirdə fəaliyyət göstərən şirkət və müəssisələri bu dəmir yolu vasitəsilə Türkiyəyə ən qısa çıxış əldə etmiş olurlar. Çünki onlar üçün bu marşrut Ukrayna-Rumıniya- Bolqarıstandan keçən marşrutdan daha qısa və sərfəlidir.

Ona görə də ABŞ-ın ölkəmizdəki səfiri Robert Sekuta BTQ-nin açılışı ərəfəsində bəyan etmişdir ki, bu yolun açılışı " bütün Avrasiya boyu daha möhkəm ticarət, kommersiya və nəqliyyat əlaqələrinin yaradılmasında növbəti mühüm addımdır. Mövcud layihə "Böyük İpək Yolunun" çox mühüm komponentidir".

Şübhəsiz, Azərbaycan, Gürcüstan və Türkiyə əvvəldə adlarını çəkdiyim enerji layihələri ilə sıx şəkildə bir-biri ilə bağlı ölkələrdir. Lakin Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı onların əməkdaşlığını tamamilə yeni bir müstəviyə qaldırdı.

Aydın məsələdir ki, özünün geosiyasi mövqeyi ilə təkcə Azərbaycan Şimaldan Cənuba, Şərqdən Qərbə və əks istiqamətdə hərəkət edən müxtəlif nəqliyyat marşrutlarının kəsişdiyi bir məkanda qərarlaşıb. Ancaq bu, ölkəmizə olan böyük marağın heç də əsas amili deyil. Digər tərəfdən, Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, müasir infrastruktura malik olan, bazar iqtisadiyyatının sürətlə inkişaf etdiyi, azad rəqabətə meydan verilən, xarici investisiya üçün açıq və eyni zamanda, etibarlı bir ölkədir. Bu amillərə ölkədəki sabit siyasi şəraiti də əlavə etsək, o zaman aydın olacaq ki, ölkəmizin beynəlxalq iqtisadi müstəvidə mövqeyinin möhkəmlənməsinə, onun imicinin artmasına aparan yol hansı mühüm məqamları özündə ehtiva edir.

Bakı-Tbilisi-Qars dəmir yolunun daha bir üstünlüyü ondadır ki, bu layihənin iştirakçıları olan ölkələrin hamısı TRASEKA nəqliyyat dəhlizinin üzvləridirlər. Bu dəhlizin üzvləri olan Qazaxıstan, Türkmənistan və Özbəkistan Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində iştirak etməklə artıq öz yüklərinin bu xətlə daşınmasında maraqlı olduqlarını təsdiqlədilər. Elə düşünürəm ki, gələcəkdə TRASEKA-nın üzvü olan dövlətlər yüklərin daşınmasında aşağı tariflər və başqa güzəştlər haqqında da razılığa gələcəklər. Çünki artıq bu sahədə müəyyən təcrübə var.

Mühüm olan bir xüsusi məqam da ondan ibarətdir ki, Azərbaycanın coğrafi mövqeyindən kifayət qədər sanballı tranzit gəliri əldə etmək üçün ölkə prezidenti cənab İlham Əliyevin uzaqgörən strategiyası sayəsində bir çox qabaqlayıcı tədbirlər də görüldü. Bu da bilavasitə nəqliyyat dəhlizinin maneəsiz işləməsinə geniş şərait yaratmaqla qlobal benifisiar olan Çinin diqqətini çəkdi. Məsələn, ticarət magistralının dar məkanını genişləndirmək məqsədilə 2007-ci ildə Prezidentin sərəncamı ilə Bakıda yeni dəniz limanının tikintisinə başlanıldı. Bu limanın ərazisi 25 kvadratkilometrə çatır və burada avtomobil, dəmir yolu nəqliyyatı ilə daşınan konteynerlər üçün terminallar salınır. Yəni, bu limanın tikintisi də Çinlə Avropanı, Şərqlə Qərbi birləşdirəcək nəhəng logistika mərkəzi kimi nəzərdə tutulmuşdur.

Ölkə prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun açılışında limanın imkanlarından danışarkən demişdir:" ***Əlbəttə ki, nəqliyyat infrastrukturumuzun önəmli hissəsi, bax, bu gün burada toplaşdığımız Ələt Beynəlxalq Dəniz Ticarət Limanıdır. Bu limanın tikintisi uğurla gedir, artıq liman fəaliyyət göstərir. Ancaq limanın birinci fazasının istismara verilməsi gələn ilin ortalarında nəzərdə tutulur. Ondan sonra ildə 15 milyon ton yük və 100 min konteyner bu limandan keçəcək. İkinci mərhələnin başa çatması nəticəsində isə Ələt limanının imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaq".***

Qaldı, bu qlobal tarixi layihənin ölkəmizin iş adamları üçün hansı əhəmiyyət kəsb etməsinə, bunu da Prezident İlham Əliyev yolun açılışında söylədiyi nitqində qısaca belə ifadə etmişdir: ***"Biznesin inkişafı, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun çox böyük əhəmiyyəti var".***

Tale elə gətirib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun keçdiyi Cənubi Qafqaz planetin əhalisinin 65 faizinin yaşadığı, dünyanın enerji resurslarının 75 faizinin cəmləşdiyi və dünyanın ümumdaxili məhsulunun 40 faizinin istehsal olunduğu nəhəng bazarların formalaşdığı Avrasiya kontinentinin mərkəzində qərarlaşıb. Etibarlı, sərfəli və sürətli nəqliyyat Azərbaycanın biznes adamlarının bu bazarlardan faydalanmasına, iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə böyük imkanlar açacaq. Xüsusilə, Azərbaycanda inşaat materiallarının əsas istehsalçıları olan "Mətanət A", "Akkord", "Holcim" və digər şirkətlər xarici bazarlarla bağlı olan bir sıra layihələrinin gələcək uğurlarını bu nəqliyyat xətti ilə bağlayırlar.

Müasir dünyada istənilən təcrübəli iş adamı biznesdə logistika imkanlarının nə qədər mühüm və lazımlı olduğunu yaxşı başa düşür. Nahaq deyil ki, dünyanın ən iri şirkətlərində logistika bölmələri fəaliyyət göstərir. Ümumiyyətlə, istehsalçı şirkətin əsas vəzifəsi heç də keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalı ilə başa çatmır. Çünki məhsul alıcıdan istehlakçıya qədər ancaq mütəxəssislərin görə bildiyi uzun bir prosesdən keçir. Bu prosesin və biznesin dəyər zəncirinin mühüm bir hissəsi məhz onun daşınması ilə bağlıdır.

Bizneslə məşğul olan hər bir insan, xüsusilə istehsalla məşğul olan şirkətlər tez-tez belə suallarla qarşılaşmalı olurlar: yükün çatdırılması xərclərini necə azaltsınlar və ya məhsulun çatdırılması yollarını necə sadələşdirsinlər? Ən az məsrəflər və daha az vaxt tələb edən ən qısa marşrutu necə seçsinlər? Bu baxımdan, logistika müəssisənin bir çox digər problemlərinin həllinə yardım edir. Məsələn, ticarət-istehsal prosesinin optimallaşdırılmasına, xidmətlərə sərf edilən vaxta qənaət etməyə, nəqliyyatın monitorinqini keçirməyə, istehsal və nəqliyyat xərclərini azaltmağa. Bütün bu məsələlər, şübhəsiz, məhsulun qiymətinin formalaşmasında ciddi şəkildə öz rolunu oynayır. Etiraf etmək lazımdır ki, hazırda dəmir yolu xəttində daşınmaların tarifi çox yüksəkdir. Məsələn, Bakıdan Tbilisiyə 1 ton inşaat materialının dəmiryol nəqliyyat xərci 25-30 manatdır. Bu da tikinti materiallarının (gips əsaslı, sement əsaslı quru inşaat qarışıqları və s.) maya dəyərinin 30 faizini təşkil edir. Dövlət başçısının ixracyönümlü məhsulların həcminin və çeşidinin artırılması ilə bağlı tövsiyəsini əsas vəzifə kimi qəbul edən Azərbaycanın inşaat materialları istehsalçıları düşünürlər ki, BTQ fəaliyyətə başlayandan sonra hökumətimizin müvafiq strukturları inşaat materiallarının dəmiryol daşımaları tariflərinə yenidən baxacaq və istehsal potensialımızın artmasına təkan verəcək daha münasib tariflər müəyyənləşdirəcəklər. Bu halda diferensial tariflər də tətbiq edilə bilər, yəni dəmiryol tarifləri məhsul növlərinə görə dəyişər (dəmiryol xərcləri tarifləri maya dəyərində 30 faiz pay tutan tikinti materialları üçün aşağı endirilə və maya dəyərində 3-5 faiz pay tutan məhsullar üçün olduğu kimi qala bilər).

Təsəvvür edək ki, istehsalçılarımız "Mətanət A", "Akkord", "Holcim" kimi şirkətlər öz məhsullarını Hindistana və ya Pakistana göndərməlidir. Daşınma yolları müxtəlif ola bilər – konteyner yükləri dəmir yolu ilə, avtomobillərlə, su nəqliyyatı marşrutu ilə. Burada seçim etməliyik ki, daşınmanın hansı variantı daha tez və daha aşağı qiymətə başa gəlir. Şübhəsiz, burada yükün daşınması riskləri, onun hansı ölkələrdən keçməsi və bu ölkələrdə daxili siyasi şəraitin hansı vəziyyətdə olması da nəzərə alınır. Amma tariflər, daşınma xərcləri daha önəmli əhəmiyyət daşıyır.

Bu parametrlərdən çıxış etmiş olsaq, o zaman Bakı-Tbilisi-Qars dəmir yolu regional siyasi əhəmiyyəti, dövlətlərarası əməkdaşlıq və dostluq münasibətlərinin inkişafında mühüm rol oynamaqla yanaşı, region ölkələrinin ticarət iqtisadi əlaqələrinin dərinləşməsinə, özəl şirkətlərin, biznes strukturlarının inkişafına da çox güclü təkan verəcək. Xüsusilə, Azərbaycanda ixracyönümlü sahibkarlığın inkişafında bu dəmir yolunun rolu və əhəmiyyəti son dərəcə artacaq.

Artıq fəaliyyətə başladığı ilk gündən Avropa İttifaqının BTQ dəmir yolunun açılışı ilə bağlı yaydığı bəyanatda da bu yolun biznes və kommersiya sahələrinin inkişafına müstəsna töhfələr verəcəyi öz əksini tapır. Qurumun yaydığı bəyanatda deyilir: "Avropa İttifaqı yeni dəmir yol dəhlizini dəstəkləyir. Bu, investisiyaların, infrastrukturların təkmilləşdirilməsi və logistikanın koordinasiyasına, kommunikasiyaların daha yaxşı tənzimlənməsinə, biznes üçün yeni imkanların yaradılmasına və ticarətin artmasına yardım edəcək". Şərhsiz də aydındır ki, bu yolla daşınacaq yüklərin əsas hissəsi elə özəl şirkətlərin, istehsal müəssisələrinin və kommersiya qurumlarının payına düşəcək. Onların həcmi isə elə də kiçik deyil.

Ölkə prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir".***

Bütün geosiyasi və geoiqtisadi əhəmiyyəti ilə yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolunun ölkəmizin sosial-iqtisadi mənzərəsinə də çox ciddi şəkildə təsiri olacaq. **Əvvəla,** *bu yol Azərbaycanın ixracyönümlü sahibkarlığının inkişafına güclü təkan verəcək. Dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən olan Azərbaycan brendi adı altında məhsulların dünya bazarına çıxışı üçün böyük imkanlar açılacaq.*

İkincisi, *logistika imkanlarının genişlənməsi eyni dərəcədə xarici sahibkarlarla ölkənin özəl iş adamları arasında işgüzar əlaqələrin genişlənməsinə şərait yaradacaq.*

Üçüncü, *Azərbaycan xarici sahibkarlar, biznes strukturları üçün daha cəlbedici ölkəyə çevriləcək. Regionda tam təhlükəsizlik və sabit siyasi şəraitin hökm sürdüyünə əminlik bərpa olunan Qədim İpək Yolunun imkanlarından yararlanmaqda maraqlı olan dünya biznes adamlarını, investorları tam arxayın bölgəyə kapital yönəltməyə sövq edəcək.*

Dördüncü, *minlərlə yeni iş yerləri açılacaq ki, bu da Azərbaycan vətəndaşlarının sosial rifahının artmasına ciddi təsir göstərəcək.*

Beşinci, *2018-ci ildə bu yolla sərnişindaşımalar başlayandan sonra ölkəyə turizm axını güclənəcək. İlkin dövr üçün BTQ ilə ildə 1 milyon, sonrakı illərdə isə 2 milyon və daha çox sərnişinin daşınması nəzərdə tutulur.*

Elxan BƏŞİROV,
Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının sədri,
"Mətanət A" şirkətinin rəhbəri,
texnika üzrə fəlsəfə doktoru

ZƏHMƏTLƏ YÜKSƏLƏN İNSAN, BACARIQLI TƏŞKİLATÇI, QAYĞIKEŞ VƏ MEHRİBAN İŞ YOLDAŞI

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin müavini, ömrünün təxminən 50 ilini ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafına həsr etmiş, əmək fəaliyyətinin son iyirmi bir ili isə bütünlüklə auditor xidməti ilə bağlı olmuş, zəhmətlə yüksələn insan, tələbkar istehsalat rəhbəri, bacarıqlı təşkilatçı, qayğıkeş və mehriban iş yoldaşı Fəxrəddin Həsən oğlu İsmayılovun 70 yaşı tamam olur.

Bu gün Azərbaycanda bazar infrastrukturları sistemində özünəməxsus yer tutan milli auditin təşəkkülündə və inkişafında müstəsna xidmətləri olan mütəxəssislərdən biri - Fəxrəddin İsmayılov 1947-ci il dekabrın 13-də Füzuli rayonunun Gecəgözlü kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunda oxuduğu illərdə Bakı Çörək Ticarəti İdarəsi sistemində əmək fəaliyyətinə başlamış, daha sonra «Azərneftkəşfiyyat» trestinin fəhlə təchizatı şöbəsində çalışmışdır. 1981-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ikinci ali təhsilini başa vuran F.İsmayılovun əmək fəaliyyətinin növbəti illəri Bakının Qaradağ rayonu ilə bağlı olmuşdur: uzun müddət «Xəzərdənizneftqazsənaye» İstehsal Birliyinin rayon fəhlə təchizatı şöbəsində və Qarışıq Mallar Ticarəti İdarəsində rəhbər vəzifələrdə işləmişdir. 1990-1996-cı illərdə isə o, Dövlət Yanacaq Komitəsinin fəhlə təchizatı şöbəsinin müdiri, fəhlə təchizatı üzrə ticarət-istehsalat birliyinin rəisi olmuş, Dövlət Gömrük Komitəsinin «Azərterminalkompleks» Xarici İqtisadi Əlaqələr Birliyində rəis müavini kimi fəaliyyət göstərmişdir.

Yüksək təşkilatçılıq bacarığı, özünə və tabeliyində olanlara qarşı münasibətdə tələbkarlığı və səmimiyyəti ilə seçilən F.İsmayılov sadalanan məsul iş sahələrinin hamısında böyük nüfuz sahibi kimi tanınmışdır.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1994-cü ildə imzalanmış «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müstəqil maliyyə nəzarəti orqanı kimi yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatası 1996-cı ilin aprel ayında fəaliyyətə başlayanda F.İsmayılov Palata sədrinin müavini vəzifəsinə təyin edilmiş və həmin vaxtdan etibarən taleyini milli audit qurumu ilə bağlamış, bütün bilik və bacarığını sahibkarlıq fəaliyyətinin respublikamız üçün nisbətən yeni növü olan auditor xidmətinin təşkili və onun metodik təminatı, auditor kadrların hazırlanması, Auditorlar Palatasının beynəlxalq əlaqələrinin yaradılması və genişləndirilməsi

işinə həsr etmişdir.

Onun zəngin həyat təcrübəsi, təşkilatçılıq bacarığı, nəcib insani keyfiyyətləri ölkənin auditor təşkilatlarında işlərin düzgün qurulmasına, əmək və istehsalat intizamının möhkəmləndirilməsinə, əməkdaşlar və auditorlar arasında mehriban münasibətlərin bərqərar olmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmiş və indi də göstərir. Fəxrəddin müəllim rəsmiyyətlə səmimiyyəti, tələbkarlıqla qayğıkeşliyi bacarıqla uzlaşdırır və məhz bunun sayəsində Azərbaycan auditorları ailəsinə daim mehriban münasibətlərin, sağlam işgüzarlıq mühitinin hökm sürməsinə şəxsi töhfəsini verir. F.İsmayılov Azərbaycanda auditin normativ hüquqi bazasının formalaşdırılması, metodik-texniki təminatı üzrə işlərdə də yaxından iştirak edir. O, ali məktəblər üçün «Audit» dərs vəsaitinin və Auditorlar Palatasında işlənib hazırlanmış «Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası (2012-2020-ci illər)»in, habelə onlarca metodik vəsaitin – proqramların, təlimat və qaydaların müəlliflərindən biridir, ölkədə audit sisteminin təşkilinin təkmilləşdirilməsinə yönəlmiş çoxlu maraqlı təkliflər irəli sürmüşdür.

Auditorların və mühasiblərin beynəlxalq və regional qurumlarının keçirdiyi müxtəlif məclislərin dəfələrlə iştirakçısı olan F.İsmayılov hər yerdə ölkəmizi ləyaqətlə təmsil etmiş, Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlıq əlaqələrinin genişlənməsi üçün səylərini əsirgəməmişdir.

F.İsmayılov Auditorlar Palatasında həyata vəsiqə almış onlarca faydalı təşəbbüsün müəllifi, xeyirxah işlərin təşkilatçısı və birbaşa icraçısı olmuşdur.

Məhz ona görə də o, istər keçmiş iş yerlərində, istərsə də hazırkı iş yerində nümunəvi və işgüzar fəaliyyətinə görə dəfələrlə mükafatlara layiq görülmüşdür. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 15 ilik yubileyi münasibətilə auditor xidmətinin inkişafındakı xidmətlərinə görə ölkə prezidentinin 2011-ci il 15 sentyabr tarixli Sərəncamı ilə Fəxrəddin İsmayılov "Tərəqqi" medalına layiq görülmüşdür.

Əqidəsi möhkəm, mənəviyyatı saf, davranışı sadə, təvazökar və təmənnasız olan Fəxrəddin müəllim öz prinsipiallığı, vətəndaş mövqeyi, milli qeyrəti yüksək olan bir Azərbaycan övladıdır. O, dövlətinə, millətinə, xalqına və torpağına sadiq olmaqla, ulu öndərimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdən başladığı əmək fəaliyyətindən daim fərəhlə danışır və bu gün həmin siyasətin uğurlu davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin yüksələn dinamika ilə artan iqtisadi reallıqlarına, uğurlarına daim sevinməklə bərabər, Yeni Azərbaycan Partiyasının üzvü kimi ictimai siyasi proseslərdə də fəal iştirak edir.

Fəxrəddin müəllimin insani keyfiyyətləri onun iş, peşəkarlıq keyfiyyətlərinin birbaşa davamıdır: o, tələbkar istehsalat rəhbəri və mehriban, qayğıkeş yoldaşdır, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran xoşrəftar insan və xalqımıza xas olan gözəl ailə başçısıdır: 4 övladı və 11 nəvəsi vardır.

Azərbaycan auditorları ailəsinin ömrünün 70-ci ilini tamamlayan sevimli üzvlərindən birini, hörmətli həmkarımızı, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran və heç kimdən köməyini əsirgəməyən qayğıkeş insan, əməksevər və intizamlı işçi, nümunəvi ailə başçısı, təcrübəli və bacarıqlı iş yoldaşı olan F.İsmayılovu yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, əmək fəaliyyətində yeni uğurlar, ictimaiyyət arasında malik olduğu hörmət və nüfuzu daim qoruyub saxlamağı arzulayırıq. Qoy, ömrünün sonrakı hər bir günü ona və ailəsinə yalnız həyat sevincləri bəxş etsin.

Vahid NOVRUZOV,
Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, i.e.d., professor
Səbuhi GÜLMƏMMƏDOV,
Azərbaycan Respublikası Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi

Hörmətli Fəxrəddin müəllim!

Mən sevinirəm ki, Sizin kimi böyük məktəb keçmiş bir ziyalını, təcrübəli və bacarıqlı, özünə qarşı tələbkar, başqalarına qayğıkeş və səmimi bir insanı tanımışam. Siz Auditorlar Palatasının keçirdiyi beynəlxalq və regional tədbirlərdə doğma Azərbaycanımızı layiqincə təmsil edirsiniz.

Ad gününüz mübarək. Sizə möhkəm can sağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər arzu edirəm. ***Allah Sizi və ailənizi qorusun!***

Akademik
Ziyad SƏMƏDZADƏ

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün

Elm və təhsilin inkişaf etdirilməsi istiqaməti üzrə

Gələcəyin təhsili - distant təhsil

"İnternet-təhsilin meydana gəlməsi son 500 ildə təhsil texnologiyaları sahəsində kitab çapının yaranması anından bu günə qədər baş verən ən önəmli dəyişiklikdir".

D.D.Hanter,
"Mədəniyyətlər savaşı" əsərindən

İnternetin imkanları insanların arzularını gerçəkləşdirir

Bu gün internet hər birimizin həyatına möhkəm daxil olmuşdur. Ali təhsil almaq, peşəkar olmaq arzusunda olan hər kəs bunu gerçəkləşdirə bilər. Yetər ki, İnternetə çıxış olsun. Bəli, artıq təhsil almaq üçün böyük şəhərlərə getmək, pul xərcləmək lazım deyil. Müasir gənclərin çoxu öz həyat və təhsillərində internetdən fəal istifadə edir. İKT-dən istifadə formalarından biri də distant təhsildir.

Bu gün ali təhsili, diplomu dəbdəbə, artıq bir şey hesab edənlərin sayı azalmaqdadır. Ali təhsilə önəm verənlər gündən-günə artır. Lakin hər kəs arzuladığı yerə gedib ali təhsil məktəblərinə daxil ola bilmir. Ona görə də bir çox ali məktəblər, xüsusilə də, xarici ölkə universitetləri müvafiq diplom verməklə distant təhsil təklif edirlər.

Hazırda bu, daha çox Qərbdə yayılıb: qabaqcıl universitetlərin və institutların distant təhsil proqramları vardır. Bundan əlavə, xüsusi "distant" təhsil müəssisələri yaradılır, onların bir çoxu (məsələn, Britaniyanın Open Universiteti) artıq dünyada böyük populyarlıq qazanmış və müxtəlif ölkələrdə öz bölmələrini yaratmışlar. Proqnozlara görə, məhz distant təhsil (təhsilin ənənəvi formaları ilə birlikdə) gələn əsrdə üstünlüyü ələ alacaq və heç də təsadüfi deyil ki, bu gün onu "gələcəyin təhsili" adlandırırlar.

Qloballaşma şəraitində bütün dünyada təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən distant təhsil texnologiyalarına tələbat gündən-günə artır. Bir çox xarici ölkələr distant təhsili prioritet istiqamət elan etmiş və müntəzəm olaraq onun inkişafına böyük həcmdə maddi vəsait ayırırlar. Bu prosesin başlanğıcını qoyan ABŞ olsa da, hazırda bir çox Avropa ölkələrində və Avstraliyada distant təhsil sürətlə inkişaf etməkdədir. Son illər distant təhsilin populyarlığı kəskin şəkildə artıb. Bu, əhalinin bütün təbəqələri üçün ən münasib və baha olmayan təhsil formasıdır.

Proqnozlara görə, onlayn təhsil genişləndikcə gənclər arasında bu universitetlərə virtual axın artacaq. Bunun qarşısını qadağalarla, süni maneələrlə almaq mümkün olmayacaqdır. Oksford, Harvard, Stenford, MİT kimi tanınmış universitetlər tədricən onlayn, açıq kurslar vasitəsi ilə pulsuz təhsilə keçirlər.

Distant təhsilin üstünlükləri

Mütəxəssislər hesab edirlər ki, əyani təhsil keyfiyyət baxımından yaxşı olsa da, bunun üçün böyük vəsait tələb olunur. Bu gün bütün insanların öz arzuları, istəkləri ilə müəyyən təhsil almasının yeganə yolu distant təhsil ola bilər. Belə ki, distant təhsil forması xeyli üstünlüklərə malikdir. Bu üstünlüklərə onun əlçatanlığı, böyük maddi vəsait tələb etməməsi, çevikliyi və s. daxildir. Bundan əlavə, vaxtın çox hissəsini tələbələr müstəqil şəkildə məşğul olurlar, müəllimlər, eyni zamanda, daha çox tələbəni öyrədə bilir. Distant təhsil insanın utancaqlıq və auditoriya qarşısında çıxış etmək fobiyası kimi psixoloji maneələri dəf etməyə imkan verir. Distant təhsil mobildir və deməli, tələbənin daim aktual məsələlərə çıxışı olur. Nəhayət, distant təhsil əyani təhsildə olan neqativ halları – korrupsiyanı istisna edir. Belə ki, burada tələbə ilə müəllim arasında canlı ünsiyyət, eləcə də qohumluq, tanışlıq münasibətləri olmadığından, rüşvətalma, rüşvətvermə halları da olmur.

Bu sistem üzrə təhsil alanlar üçün müəyyən təhsil səviyyəsi vacib deyil və hər kəs "istədiyi qədər", yəni hər hansı predmeti mənimsəyə və zaçot almaq üçün zəruri olan qədər öyrənə bilər. Distant təhsil fasiləsiz təhsil sisteminin formalarından biri olub, insanların təhsil hüququnu, informasiya almaq hüququnu gerçəkləşdirməyə xidmət edir. Bu, təhsil almaq arzusunda olan hər kəsə öz peşə fəaliyyəti ilə paralel olaraq əsas və ya əlavə təhsil almağa imkan yaradır. Deməli, distant təhsil alınmasında əhalinin müxtəlif təbəqələrinə bərabər imkanlar yaradılır.

Azərbaycanda distant təhsil: ilk addımlar və qarşıya çıxan problemlər

Azərbaycanda distant təhsilin rəsmi yaranma tarixi «Təhsil haqqında» yeni Qanunun təsdiq edildiyi 19 iyun 2009-cu il hesab olunur. "Təhsil haqqında" Qanunun 13-cü maddəsinə əsasən, Azərbaycanda təhsil almanın 4 forması mövcuddur. Bu, əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsil formalarıdır. Distant təhsil öyrədən və öyrənən arasında telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirilən təhsil formasıdır.

Bir çoxları hesab edirlər ki, distant təhsil bizə məlum olan qiyabi təhsilin yeni formasıdır. Düzdür, hər kəs evdən çıxmadan təhsil ala bilər, ancaq bir şərtlə: onun müasir, standart proqramla təchiz edilmiş kompüteri olmalıdır. Bu proqramın mahiyyəti ondan ibarətdir ki, distant təhsil və müasir texnika və texnologiya ayrılmazdır. Və artıq tələbə praktiki olaraq harada yaşamasından asılı olmayaraq, istədiyi ali təhsil müəssisəsinin proqramı üzrə təhsil ala bilər. Bu o deməkdir ki, bu gün təhsil dünyəvi və əlçatan olub, siyasi və iqtisadi birlik proseslərini qabaqlayır.

Bəs, Azərbaycanda distant təhsilə keçid necə həyata keçirilir və ya ümumiyyətlə, bu sahədə vəziyyət necədir? Bu və digər suallara cavab tapmaq üçün təhsil üzrə ekspert, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti ***İlham Əhmədov***la görüşüb söhbət etdik. Onun sözlərinə görə, "Təhsil haqqında" Qanunda Azərbaycanda təhsil almanın formalarından biri distant təhsildir. Amma təhsilin bu formasının qanunda öz əksini tapmasına baxmayaraq, ali məktəblərin maddi-texniki bazası bunun tətbiqinə imkan vermir. Vaxtı ilə Təhsil Nazirliyi tərəfindən (2005-ci ildə) ali təhsilin bəzi istiqamətləri üzrə distant texnologiyaların tətbiqi üçün konseptual və strateji əhəmiyyətli müəyyən sənədlər hazırlanıb. Bu sənədlərə müəyyən əlavələr etməklə, ali pedaqoji təhsilin distant texnologiyalar əsasında reallaşdırılması istiqamətində hazırlıq işlərinə başlamaq mümkündür. Ölkə səviyyəsində ali təhsilin bütün mühüm istiqamətləri üzrə distant təhsil sistemini yaratmalı olsaq, minlərlə elektron dərslik hazırlanmalıdır. Mütəxəssislərin hesablamalarına görə, bu işə 10 il vaxt və 150 milyon manatdan artıq vəsait lazım ola bilər. İnkişaf etmiş və inkişafda olan bir çox ölkələr bu işi 10-15 il əvvəl və daha çox investisiya ilə həll etmişlər. Göründüyü kimi, distant təhsil sisteminin yaradılması böyük maliyyə vəsaiti tələb edir. İlham müəllimin fikrincə, ölkəmizdə 1999-cu ildən başlayaraq təhsil islahatları həyata keçirilir. Azərbaycan Dövlət İqtisad Universitetində distant təhsillə əlaqədar bir sıra işlər görülsə də, bu iş hələ də həll olunmayıb. Çünki distant təhsil sisteminin yaradılması ölkə səviyyəli problemdir, bunu bir universitetin gücü ilə həll etmək mümkün deyil. Bunun üçün Azərbaycanda distant təhsilin inkişaf strategiyaları hazırlanmalı, hüquqi normativ baza yaradılmalıdır. Təəssüf ki, nazirlik səviyyəsində bu istiqamətdə zəruri işlər görülməmiş və İqtisad Universitetində başlanan təşəbbüs sonadək tam reallaşa bilməmişdir. Distant təhsilin yaradılması üzrə ölkəmizdə bəzi universitetlərdə müəyyən ixtisaslar üzrə pilot layihələr hazırlayıb həyata keçirməyin zamanı çoxdan çatmışdır.

Ekspert sözü

Ölkəmizdə distant təhsilin yaradılması sahəsində problemlər çoxdur. Bu barədə danışan İlham Əhmədov dedi: "Problemlər innovasiya cəmiyyətinin, informasiya cəmiyyətinin yaranması ilə bağlıdır. İnformasiya texnologiyalarının yaranması təhsildə inqilabi situasiya yaradıb. Dünyada milyonlarla tələbəsi olan universitetlər var. Həmin universitetlərdə tələbələr 100-dən artıq ixtisas üzrə təhsil alırlar. Tələbələrin seçim imkanı böyükdür, onlar tələbat və maraqlarına uyğun olaraq paralel fənlər, digər ixtisaslardan əlavə modullar götürür, bu da çox yaxşı nəticə verir, çünki onlar asanlıqla iş tapa bilirlər. Artıq tələbəlik dövründən işləyə-işləyə oxuyurlar, həm də staj toplayırlar. Hazırda respublikamızdan kənarda distant texnologiyalar əsasında təhsil alan gənclərimizin sayı kifayət qədərdir. Onlar Avropanın, Amerikanın, Asiyanın universitetlərində distant təhsil alırlar. Gənclərimizin xaricdə distant təhsil alması bizim milli universitetləri də müəyyən qədər rəqabətə dəvət edir. Artıq təhsil bazarı qlobal xarakter daşıyır. Təəssüf ki, bizim universitetlər bu rəqabətə hazır deyillər...

Azərbaycanda distant təhsilin yaradılması və inkişafı üçün müəyyən işlər görülür, ən azından gələn ilin dövlət büdcəsindən təhsilə xeyli vəsait ayrılıb, onun müəyyən hissəsi distant təhsilin yaradılması üçün nəzərdə tutulub. Düzdür, biz bu sahədə 15 il itirmişik, amma gec də olsa, bu işə tezliklə başlamalıyıq.

Distant təhsilin yaradılması üçün güclü elektron kitabxana sistemi lazımdır. Tədris planında olan bütün fənlər üzrə elektron dərsliklər hazırlanmalıdır. Professor-müəllim heyətinin hamısının uzunmüddətli, sistemli təkmilləşdirmə kursu keçməsi zəruridir. Yüksək səviyyəli texniki avadanlıqlarla təminat problemi həll olunmalıdır və mütəmadi olaraq bu sistem zənginləşdirilməlidir". Bütün bunların həyata keçirilməsi distant təhsili müasir dövrün sosial kontekstinə daxil etməyə imkan verəcəkdir. Bu həm zərurət, həm də Azərbaycan Respublikasının ali təhsil sisteminin modernləşdirilməsinin strateji istiqamətlərindən biridir.

Rus Əhmədin çağırışı

Sonda Azərbaycan kinosunun şedevrlərindən biri – İsmayıl Şıxlının eyniadlı əsəri əsasında çəkilmiş «Dəli Kür» filmini xatırlatmaq istərdim. «Niyə faytonçu oğlu fayton sürməli, qəssab oğlu qəssab olmalıdır?», - deyib etiraz edən Rus Əhməd haqlı deyildimi? Bu gün ucqar dağ kəndində yaşayan qəssab oğlu da, çoban oğlu da, kifayətdir ki, müasir standartlara cavab verən bir kompüterlə ali təhsil alsın.

Bu sadalanan problemləri yubatmadan həll etməliyik ki, sabah övladlarımız bizi qınamasın, yaşlı nəsil isə "Sovetlər dövrünün təhsil sistemi pulsuz və daha yaxşı idi", - deməsin... Lap elə qəssab oğlu da, çoban oğlu da heç bir maddi çətinlik çəkmədən xarici ölkə universitetlərinin birində oxuyub müasir biliklərə yiyələnsin, elmlə silahlansın, lazım gəldikdə doğma Azərbaycanımızı beynəlxalq səviyyədə, ən mötəbər yerlərdə layiqincə təmsil edə bilsin.

Azərbaycan İKT sahəsində xeyli uğurları olan kosmik dövlətdir, ASAN xidmət kimi mütərəqqi bir ideya məhz bizim ölkədə həyata keçirilib. İndi Azərbaycan dünyada tanınır, onunla hesablaşırlar. Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda Azərbaycan 138 dövlət arasında 35-ci yerdədir (*MDB ölkələri arasında isə 1-ci yerdə*). Bütün bunlar göstərir ki, istəyimiz olanda nailiyyət əldə edə bilərik. Yetər ki, sözdən əmələ keçək. Əminəm ki, Azərbaycanda yaxın zamanlarda distant təhsil geniş yayılacaq, bunun üçün ölkəmizin oxumaq, öyrənmək əzmində olan istedadlı gəncləri, dövlətimizin isə kifayət qədər gücü, potensialı var.

Yeganə MƏMMƏDOVA

Kollec QHT əməkdaşlığı genişlənir

Ölkəmizdə vətəndaş cəmiyyətinin aktual mövzularda icra etdiyi layihələr ümumi inkişafımıza müsbət töhfələr verir. QHT sektorunun cəmiyyətdə maarifçilik və təbliğat xarakterli layihələri gənclərin fəal həyat mövqeyi tutmasına dəstək verir, onları ölkənin sosial-iqtisadi sahələrdəki nailiyyətləri ilə tanış edir. QHT sektorunun təhsil müəssisələrində təşkil etdiyi tədbirlər tələbələrin və pedaqoji kollektivin marağına səbəb olur.

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci son dövrlər sosial-iqtisadi və təhsil yönümlü maarifləndirici layihələr icra edən QHT-lərlə səmərəli əməkdaşlıq edir. 04.12.2017-ci il tarixində isə Kollecdə Azərbaycan Respublikasının Prezidenti yanında "Gənclər Fondu"nun Qrantı hesabına "Gənclik və maarifçilik" ictimai birliyinin "Gənclərin İT yönümlü peşələrə istiqamətləndirilməsi" layihəsi çərçivəsində tədbir keçirildi. Tədbirdə məruzə edən layihə meneceri, ADPU-nun dosenti İlham Əhmədov qeyd etdi ki, peşəyönümü işi çoxsahəli və mürəkkəb bir prosesdir.

Burada yalnız kompleks yanaşma nəticəsində müəyyən nailiyyətlər qazanmaq mümkündür. Təəssüf ki, son 20 ildə ölkəmizdə peşəyönümü üzrə işlər xeyli zəifləyib. Peşəyönümü gənclərə peşə seçimində edilən köməklik və bu işdə onlara düzgün yol göstərir. Bu zaman onların maraq, meyil və qabiliyyətləri, əmək bazarında olan mövcud tələbat nəzərə alınmalıdır. Düzgün peşə seçimində hər kəs öz yerini və imkanlarını dəqiq bilməlidir. Pedaqoji Kollecin tələbələri - gələcək müəllimlər peşəyönümü işini tələbəlik illərindən ətraflı öyrənməli və gələcək pedaqoji fəaliyyətlərində bunu düzgün tətbiq etməlidirlər.

Bü gün dünyada rəqəmsal iqtisadiyyatın sürətli inkişafı, ölkəmizdə qeyri-neft sektorunun perspektiv inkişafı peşəyönümü işində İKT yönümlü peşələrə xüsusi önəm verilməsini tələb edir.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Elektron hökumət təlim-tədris mərkəzinin baş mütəxəssisi Zakir İbrahimovun İKT yönümlü peşələr mövzusunda məruzəsi də iştirakçıların böyük marağına səbəb oldu. Daha sonra mövzu ətrafında müzakirə və çıxışlar dinlənildi.

Azercell-dən korporativ müştərilərinə xüsusi hədiyyə

Şirkətin dəvətilə dünya şöhrətli Marketinq təlimçisi Bakıda 2 günlük seminar keçirdi. Azərbaycanın lider mobil operatoru Azercell Telekom fəaliyyət göstərdiyi gündən etibarən abunəçilərinə, eləcə də korporativ sektor müştərilərinə böyük qayğı ilə yanaşıb, onların uğurlu biznes fəaliyyətində bir tərəfdaş kimi çıxış edib. Müxtəlif innovativ layihələrin müəllifi olan Azercell bu dəfə korporativ abunəçiləri üçün "Uğurlu marketinq vasitələri" adlı xüsusi seminar təşkil edib. "Uğurlu marketinq vasitələri" adlı seminar satış və biznesin səmərəliliyinin artırılmasına imkan verən servis, xidmət və vasitələrin unikal platformasının təsisçisi, biznes təlimatçı İqor Mann tərəfindən aparılıb. Noyabrın 28-i və 29-da Boulevard Oteldə baş tutan seminarda Azercell Telekom MMC-nin prezidenti Vahid Mürsəliyev də iştirak edib. Vahid Mürsəliyev Azercell Telekom MMC-nin korporativ abunəçiləri üçün indiyə qədər həyata keçirdiyi layihələrdən söz açıb:

"Korporativ abunəçilərimiz üçün həyata keçiriyimiz layihələr, gördüyümüz işlər öz töhfəsini verib. Belə ki, 2017-ci ildə 1300-ə yaxın yeni şirkət Azercell-in korporativ müştəriləri sırasına qatılıb. Uğurlu biznesin təşkili və idarəedilməsində düzgün marketinq strategiyasının müəyyən edilməsinin vacibliyini nəzərə alaraq bugünkü seminarı təşkil etdik."

Azercell iPhone X kampaniyasına start verdi

iPhone X telefonlarının Azərbaycanda rəsmi təqdimatçısı Azercell Telecom MMC öz abunəçiləri üçün yeni iPhone X telefonları üzrə cəlbedici kampaniyaya başlayır. Belə ki, ayda cəmi 129 manat ödəməklə abunəçilər ən müasir smartfona sahib ola və 30GB həcmində "Hedsiz" internet paketi əldə edə biləcəklər. 1-8 dekabr tarixləri ərzində kampaniyaya qoşulan müştərilər isə telefonu aldıqları tarixdən sonrakı bir ay ərzində "Hedsiz" tarifindən pulsuz yararlana biləcək. iPhone X kampaniyasına qoşulmaq üçün abunəçilər Azercell-in Müştəri Xidmətləri Mərkəzlərinə yaxınlaşmalıdırlar. Telefonların sayı məhduddur.

Məlumat üçün qeyd edək ki, iPhone X iPhone-un ən yeni nəsil modelidir və yeni kamera sistemi və orijinal dizaynı ilə seçilir. Azercell şirkəti bundan sonra da abunəçilərini yeni sərfəli kampaniya və xidmətlərlə sevindirməkdə davam edəcək.

"AtaBank"-dan ənənəvi Yeni İl kampaniyası

AtaBank inanılmaz Yeni İl kampaniyası çərçivəsində müştərilərinə dəyərli hədiyyələr təklif edir.

"Hədiyyəli Yeni İl" kampaniyası çərçivəsində, 04.12.2017–29.12.2017 tarixləri arasında "AtaBank" ASC-də sığortalı əmanət yerləşdirən müştərilər istədikləri hədiyyəni əldə etmək şansını qazanırlar.

Əmanətçilərə müqavilə ilə birgə hədiyyələr siyahısı təqdim olunur və müştərilər yerləşdirdikləri məbləğin dəyərindən aslı olaraq hədiyyə seçimi edirlər. Belə ki, "AtaBank"da əmanət yerləşdirən müştərilərə veriləcək hədiyyələr aşağıdakılardır: İphone X, İsma Bike, Excelsior Hotel, Chinar Hotel & SPA, Excelsior Hotel Shamkir, Qalaaltı Hotel & SPA otellərində istirahət, müalicə və idman paketləri. Kampaniya yalnız fiziki şəxslərə şamil olunur və yola saldığımız ilin son iş günü, yəni 29 dekabr 2017-ci il tarixinədək qüvvədədir. Kampaniya şərtləri ilə daha ətraflı şəkildə tanış olmaq üçün 136 məlumat mərkəzi ilə əlaqə saxlaya bilərsiniz.

"Excelsior Hotel & Spa Baku" oteli noyabrda birinci olub

Noyabr ayı üzrə aparılmış media monitorinqinin nəticələrinə görə, "Excelsior Hotel & Spa Baku" oteli mətbuatda işıqlanan məlumatların sayına görə birinci olub. Belə ki, "Media Consulting & Services" şirkətinin apardığı araşdırmaya görə, otelin fəaliyyəti ilə bağlı mətbuatda 142 məlumat işıqlanıb. "Media Consulting & Services" şirkəti 10 televiziya, 55 çap və 500 onlayn media daxil olmaqla 565-dən çox mənbədə işıqlandırılan məlumatları say, xarakter və məzmun üzrə təhlil edərək, sektorlar üzrə şirkətlərin media reytinqini hesablayıb. "AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova qeyd edib ki, "Excelsior Hotel & Spa Baku" otelinin fəaliyyəti ilə bağlı noyabr ayında mətbuatda 5 pres-reliz işıqlanmışdır. Cari ilin dekabr ayında da maraqlı tədbirlərin keçirilməsi planlaşdırılıb. Otelin yeni xidmətləri haqqında məlumatlar daim operativ şəkildə ictimaiyyətə çatdırılır. Həmçinin, oteldə daim maraqlı və faydalı tədbirlər keçirilir. PR menecerlər arasında keçiriləcək dəyirmi masada otelçilikdə PR işinin təşkili, bu sahədə beynəlxalq təcrübə və metodlar, həmçinin bunların Azərbaycanda otelçilik PR-ının inkişafına tətbiqi imkanları müzakirə ediləcək. Tədbirdə otel sahəsində çalışan PR mütəxəssislər, ekspertlər bu sahədə öz təcrübələrini bölüşəcək, mövzu ətrafında fikir və təkliflər səsləndiriləcək. Gələcəkdə otelçilikdə mütəxəssislərin peşəkarlıq vərdiş və bacarıqlarının artırılması yönündə əməkdaşlıq imkanları nəzərdən keçiriləcək. Azərbaycanda otelçilik turizminin sürətlə inkişaf etməsi şəraitində otellərin daha səmərəli fəaliyyəti və imiclərinin müsbət formalaşması üçün otelçilik PR-ının inkişafı önəmlidir. Məhz bu baxımdan otelçilik üzrə PR məsələlərinə həsr edilmiş dəyirma masa aktuallıq kəsb edir. Dekabr ayının sonunda "AtaHolding" Şirkətlər Qrupunun Korporativ Kommunikasiyalar şöbəsinin 2017-ci ildə həyata keçirdiyi işlərin illik hesabat təqdimatı olacaq.

Bakcell şirkəti "Bakutel 2017" sərgisində: ən son mobil texnologiyalar və bir- birindən maraqlı əyləncələr

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti qarşıdan gələn 23-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları "BakuTel 2017" Sərgi-Konfransında fəal iştirak edir.

"BakuTel" sərgisi telekommunikasiya sahəsində fəaliyyət göstərən şirkətlərin əldə etdikləri ən son nailiyyətləri nümayiş etdirmələrinə və ziyarətçilərin, xüsusən peşəkar istifadəçilərin telekommunikasiya şirkətləri tərəfindən təqdim olunan yeniliklərlə tanış olmalarına çox gözəl imkan yaradan bir hadisədir, - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Bekers bildirib.

"BakuTel 2017" sərgisində Bakcell stendinin ziyarətçiləri "Robot Automation Latency"nin nümayişi ilə yanaşı, Azərbaycanda indiyədək görünməmiş 5G-yə hazırlığı və 4.5G Pro texnologiyasının sürətini görmək imkanı qazanacaqlar. Bakcell və Nokia şirkətləri tərəfindən təqdim olunan bu nümayişdə məlumatların ötürülməsində gecikmə müddətinin aşağı olması, habelə sürətli, effektiv və intellektual rabitənin təmin olunmasında bütün proseslərin avtomatlaşdırılması ilə bərabər, aşağı gecikmə müddətinin əhəmiyyəti diqqətə çatdırılacaqdır. Qonaqlar 1 Gb/ saniyəyədək inanılmaz data sürətinə və hətta robot şousuna baxıb əylənə biləcəklər.

Bundan əlavə, Bakcell stendinin ziyarətçiləri Bakcell şirkətinin təqdim etdiyi "Bakcell TaxFree app", "Klass Postpaid", "MyHour" və hətta "Pulsuz İnstagram" kimi bəzi yeni məhsullar, təkliflər və xidmətlərlə tanış ola biləcəklər. Həmçinin, Bakcell-in korporativ müştərilərinə yaxın gələcəkdə təklif olunacaq "Microsoft Office 365" Abunə Paketini əldə etmək istəyənlər həmin paketi Bakcell stendində öncədən sifariş edə bilərlər.

Üstəlik, stenddə Bakcell şirkətinin "AppLab" proqramı vasitəsilə gənc proqram tərtibatçıları tərəfindən yaradılmış 4 layihə də nümayiş etdiriləcəkdir. "AppLab" regional səviyyədə ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında seçilmiş developerlərə kömək etmək məqsədi ilə yaradılmış proqramdır.

"Fan-zona"ya gələn Bakcell stendinin qonaqları Foto/Video Köşkündə öz şəkillərini müxtəlif maraqlı çərçivələr və fonlarda çap etdirmək imkanına malik olacaqlar.

Stendin Sür@ zonasında qonaqlar hətta pulsuz internet trafiki əldə etmək imkanına malik olacaqlar.

Belə ki, bu zonada böyük bir monitora (spidometr) qoşulmuş qaçış trenajoru quraşdırılacaq və gələnlər bu trenajorda 30 saniyə ərzində qaçmağa dəvət olunacaqlar. İştirakçılar öz qaçış sürətlərinə uyğun yığdıqları meqabaytlar həcmində internet trafiki qazanacaqlar. Bu yarışma başa çatdırdan sonra iştirakçının qazandığı meqabaytlar növbəti gün ərzində onun telefon nömrəsinin balansına yüklənilir. İştirakçı hətta Bakcell abunəçisi olmadıqda belə, meqabaytlar hədiyyə kimi onun dostunun/yaxınının balansına yüklənə bilər.

Daha bir şirkət kredit əməliyyatlarını elektron arayışlarla həyata keçirəcək

"Elektron hökumət" portalı ilə tərəfdaşlıq edənlərin siyahısına daha bir şirkət əlavə olunub. Belə ki, "İrşad Elektronics" MMC kredit əməliyyatları prosesinə elektron arayışları daxil edərək vətəndaşlara "Elektron hökumət" portalı üzərindən daha rahat xidmət təqdim edəcək. Portala daxil olaraq sistem tərəfindən avtomatik formalaşdırılan arayışı elektron şəkildə şirkətə təqdim etmək olar.

Portaldan bildirilib ki, elektron arayış müxtəlif dövlət orqanlarının elektron informasiya ehtiyatları əsasında hazırlanmış elektron sənəddir. Elektron arayışların əsas üstünlüyü vətəndaşın işlədiyi müəssisədən arayış almaq zərurətinin aradan qaldırılmasıdır.

Xatırladaq ki, "Elektron hökumət" portalının vətəndaşlara göstərdiyi bu xidmətdən artıq 30-a yaxın bank və kredit təşkilatı yararlanır.

Hazırda portal tərəfindən vətəndaşlara 18 növ arayış təqdim olunur.

ETİBARSIZDIR

Bağırova Lalə Asif qızının adına Maştağa qəsəbəsi, Bağ nömrə 15a ünvanına verilmiş 29742 (8844) №-li bağın icarəyə verilməsi haqqında müqavilə itdiyi üçün etibarsız sayılsın.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500